Simuzər Ağakişiyeva

# Qəhrəmanlıq nümunəsi

*Bu kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.*

Bakı 2022

**Qəhrəmanlıq nümunəsi**

**Bakı - "Red N Line" MMC - 2022, 76 səh.**

**Redaktor: Nailə Ağca**
**Bədii tərtibat: Reyhan Cəfərova**
**Rəssam: Ülviyyə Həmzəyeva**
**Səsləndirən: Nailə Ağca**

İkinci Qarabağ müharibəsi zamanı görmə qabiliyyətini itirmiş qazilər haqqında

*"Kitabın məzmunu "Azərbaycan Gözdən Əlillər Cəmiyyəti" ictimai birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir".*

## Vətənə fəda olan işıq

Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında aparılan müzəffər Vətən müharibəsi həm Azəraycanın otuz il işğal altında olan torpaqlarının azad edilməsiylə nəticələndi, həm də Azərbaycan xalqını sanki yenidən özünə qaytardı, bütün dünyaya tanıtdırdı. Xalqımız sübut elədi ki lazım gələn məqamda bir iradə ətrafında dəmir yumruq kimi birləşməyi, düşmənə öz gücünü göstərməyi bacarır. Qələbəmiz bunun bariz nümunəsi oldu.

Bu müharibə zamanı minlərlə şəhid verdik, minlərlə igid Azərbaycan oğlu qazi oldu, lakin nə şəhid ailələrinin, nə də qazilərimizin dilindən bircə dəfə də zərrə qədər təəssüf hiss etmədik. Şəhid ailələri dedi, «Vətən sağ olsun», sağlamlığını itirən qazilərimiz dedi «Vətən sağ olsun». Hamının dilində yalnız bir söz vardı-vətən sat olsun…

Həqiqətən də Vətən o vaxt zirvələrə ucalır ki onun uğrunda igidlər canından-qanından keçir, vətən bayrağını zirvələrə ucaltmaqçün heç nəyi əsirgəmirlər.

Bu kitab işğalda olan torpaqlarımızı azad etmək üçün ölümdirim savaşına atılmış, ağır döyüşlərdə qəhrəmancasına savaşmış və yaralanaraq görmə qabiliyyətini itirmiş igidlərimiz haqqındadı. Onlar vətən uğrunda gözlərinin işığını fəda ediblər.

Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin "Qəhrəmanlıq nümunəsi" layihəsi çərçivəsində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə Simuzər Ağakişiyevanın qısa müddətdə ərsəyə gətirdiyi "Qəhrəmanlıq nümunəsi" adlı bu sənədli bioqrafik kitabda igidlərimizin hər birinin həyatı, döyüş yolu və yaralanma hadisəsi ayrı-ayrılıqda təqdim edilib. Kitabı vərəqləyərkən oxucunun gözü qarşısında müxtəlif yaş kateqoriyalarına məxsus olan, fərqli ömür

yaşayan igidlərimizin portreti real şəkildə canlanır. Oxucu sanki bu qəhrəmanlarla söhbətə başlayır, onların hekayətlərini, hiss və duyğularını, vətən yolunda apardıqları mübarizənin fraqmentlərini öz dillərindən eşidir. Müəllif bəzən özü də hekayətlərə müdaxilə edir, qəhrəmanların sanki danışmağa, xatırlamağa çətinlik çəkdikləri müəyyən məqamları öz dilindən oxucuların diqqətinə çatdırır, çətin halları şərh edir.

Ümumilikdə Simuzər Ağakişiyevanın həm qəhrəmanlara, həm də təsvir etdiyi qəhrəmanlıq hekayətlərinə fərdi spesifik münasibəti də hiss olunur. Özü də birinci Qarabağ savaşının iştirakçısı olan müəllif təsvir etdiyi döyüş epizodlarının dramatizmini, ağrı acısını bütün varlığıyla hiss edir və bacardığı qədər təsirli şəkildə oxuculara çatdırmağa çalışır. Kitabdakı materialları mütaliə etdikdən sonra insanın gözü qarşısında daxili əzəmətiylə, iradəsiylə başqalarından üstün olan,vətənçün tək gözündən yox, bütün varlığından, canından qanından keçməyə əhazır olan fədakar igidlər canlanır.

Elə müəllfin də bu kitabı ərsəyə gətirməkdə məqsədi məhz bu olub-bu canfədа igidləri xalqımıza daha da yaxından tanıtdırmaq, onların igidliyini indiki gənclərə nümunə göstərmək, vətən uğrunda həqiqi fədakarlığın necə olduğunu təqdim etməkdir.

Məncə müəllif buna nail olub və kitabda haqqında danışılan qəhrəmanlar həqiqətən də gələcək nəsillərimiz üçün vətənpərvərlik, fədakarlıq nümunəsi olacaqlar.

**İlqar Fəhmi**
*Yazıçı dramaturq*
*Azərbaycan Yazıçılar Birliyinin katibi*



**ABDİNOV CAVİD**

27 iyun 2001-ci ildə Siyəzən rayonunda anadan olub.

3 bacının bir qardaşı olan Cavid, ürəyində vətən sevgisi ilə böyüyüb, yaşayıb. Cavid deyir ki, ”Hələ əsgər getməmişdən bacım oğluna deyirdim ki, dayın gedib vətən uğrunda şəhid olacaq. Əslində mən o vaxt məktəbdə oxuyurdum, arzularım da vardı, universitetə də hazırlaşırdım. Amma, ən böyük arzum torpaqlarımızın düşmən işğalından azad olunması idi. Elə ona görə də, məktəbi bitirəndən sonra əsgərliyə getdim”.

02 07. 2019-cu il hərbi xidmətə çağırılıb Cavid. Xüsusi təyinatlılarda xidmət edib. 27 sentyabr 2020-ci ildən müharibədə iştirak edib. Əslində müharibənin başlayacağını gözləyirdilər. Komanda veriləndə onlar artıq şəxsi heyətlə bunu gözlədiklərindən həvəslə döyüşlərə qatıldılar. İlk döyüşə Murovdağda başlayıb Kəlbəcər istiqamətində irəliləyib, sonra da, verilən komandaya əsasən Füzuli istiqamətinə dönüblər. Yaralanmağını dəqiq xatırlamır. Müharibədən bir həftə sonra Füzuli Cəbrayıl istiqamətində gedən

döyüşlərdə yaralanır. Bütün şəxsi heyətlə irəlilədikdə düşmənin bunker adlanan məkanına çatırlar. Burada düşmənin atdığı qrad və minamyot yağışına tuş gəlirlər.

3 oktyabrda yaralanan Cavid o anı bir anlığına minamyotun düşdüyünü və onu təqribən18 metr məsafədə tulladığını deyir. Amma, buna baxmayaraq Cavid özünü itirmir. Üstündə minayot və mərmi qırıntıları var idi. Cavid qrup komandiri olub. Əsgərləri gəlib onu oradan aparırılar. Yaralanma anı ona elə gəlir ki, gözlərinə qum dolub. Əlini üzünə aparan Cavid görür ki, qulağı yoxdur. Əlini çənəsinə aparanda qulağının çənəsində olduğunu hiss edir. Cavidi bu vəziyyətdə Füzuliyə hospitala apardılar. Hospitalda Cavid kliniki ölüm keçirdir. Ayılanda bir anlıq həkimləri görür. Sonra daha gözləri görmür. Cavid sağ qalmaq ehtimalının 1-2 faiz olduğunu həkimlərin danışığından eşidir. Kliniki ölümdən qayıtdığını ona əsgər dostu İbrahimov İbrahim deyir.

Onu ambulansla Bakıya, Papanin hospitalına gətirirlər. 4 oktyabrda artıq Bakıda idi Cavid. Gətirilən kimi əməliyyata alınan Cavidin əməliyyatı uğursuz keçir. İki uğursuz əməliyyatdan sonra sol gözünü bərpa edirlər. Artıq sol gözü az da olsa görən Cavidi 29 oktyabr hospitaldan evə buraxılır. Cavid yanında şəhid olan əsgər yoldaşlarından ürək ağrısı ilə danışır:

- Yaralı olan, sonradan şəhid olan əsgər yoldaşlarımızın əsəs arzuları onlardan sonra torpaqların mütləq alınması idi. Əsgər yoldaşım Rzazadə Fərman da şəhid olmamışdan qanımızı alarsınız deyir. Əsgər Rüfət Bağırov əgər şəhid olaramsa atama onu çox sevdiyimi deyərsiniz dedi. Ondan sonra mən yaralandım, yaralanandan sonra Bağırovu çağırdım dedim ki, bax mən səndən pis haldayam, indi sən mənim sözlərimi atama çatdırarsan. Mən çox pis halda idim. İndiki halımda da bədənimdə 200 qəlpə var. Düşnürdüm ki, sağ qalmaram.

3 bacının bir qardaşı, Cavidin arzusu olub kəşfiyyatda olsun. Vətən uğrunda döyüşmək, torpaqlarımızın azad olunmasında payının olması əsas məqsədi olub. Əsgərliyə təzə gedən Cavidgilin dəstəsindən 052-yə seçmək üçün gəlmişdilər. Cavidin boyu 175sm olduğundan götürmək istəmədilər ki, 176 sm olsaydı götürərdik deyiblər. Deyir: ”Mən gedib xahiş elədim, yəni əl çəkmədim. Onda polkovnik leytenant var idi, mənə dedi ki, narahat olma aparacam səni. Sonra gedib test verdim, normativləri verdim, qəbul elədilər”.




Müharibə vaxtı keçirdiyi qorxu hissi ancaq düşmənə heç bir zərbə vurmadan ölə bilməsidir. Başqa heç nə onu qorxutmayıb. Yeganə pis olduğu məqam döyüş yoldaşlarının indi yanında olmamalarıdı. Əslində onların ən uca məqamda olduqlarını fəxrlə qeyd edir.

Müharıbəyə getməmişdən bir gün əvvəl evlərinə zəng edir. Bir də yaralanandan sonra gizir zəng edib yüngül yaralandığını xəbər verir. Yəni gözlərini itirdiyini evlərinə xəbər verməyə icazə vermir Cavid.

Cavid deyir: ”Atamgil xəstəxanaya gələndə orda öyrənirlər ki, gözlərimi itirmişəm. Amma, həkim də bir gözümün görmə ehtimalının olduğunu deyib atama”.

Müharibədən sonra indiyə kimi, şəhid olan əsgər yoldaşlarını, döyüşdükləri torpaqları yuxuda görür. Arzusudu o torpaqlara getmək, yaralandığı yeri görmək.

Əslində ən çox Cavidlərin haqqıdı o torpaqlara ayaq basmaq.

Həyatına davam edir Cavid. Müharibədən sonra Pedoqoji Universitetə qəbul olub. Hərbi idman müəllimi olacaq.

Amma, hər şeyə rəğmən bütün danışıqları, söhbətləri müharibə ilə bağlıdır. Danışdıqca, o uca məqamın ona qismət olmadığını dönə-dönə qeyd edir. Şəhid analarına, ailələrinə övladlarının şəhid olduqlarına görə təəssüf hissi keçirtməsinlər deyir.

Cavid gözlərinin nurunu itirsə də qələbəmizdən qürurla danışır. Deyir, analarımız ağlamasın. Övladları torpaq uğrunda, vətən uğrunda şəhid olublar. Biz qalib gəlmişik.

Danışır Cavid. O, danışdıqca adam düşünür ki, məhz belə oğulların hesabına bu torpaqlar alına bilərdi. Bütün bunları şairimiz Qulu Ağsəsin misralarını xatırladır adama:

Sərkərdə niyə döyüşür? -
Yurduna dəyən olmasın.
Dost deyən olsun həmişə
Düşmənlər deyən olmasın!
Silah çəksə elimizə,
Kimsə həddin aşsa əgər…
Şəhidlər o dünyanın da
Altın üstünə çevirər…



## BABAYEV ANAR

25 yanvar 1998-ci ildə Sumqayıt şəhərində anadan olub.

Anar Babayev 2016-cı ildə Ağcabədidə hərbi xidmətə gedib, 2018-ci ildə əsgərlikdən qayıdıb. 2019-cu ildə sülhməramlı taborda müddətdən artıq hərbi xidmətdə olur. 2020 sentyabrında döyüşlərə qatılan Anar Cəbrayıl, Qubadlı istiqamətində sürücü, atıcı kimi iştirak edib.

Anar 9-cu sinifə kimi fars təmayül internat məktəbində oxuyub orada qaldığı üçün özünü bu vətənə borclu hiss edib həmişə. Deyir ki: ”Mən bu vətənin çörəyini yemişəm. Vətən sevgisi içimdə bir başqadı mənim. Uşaq vaxtından bu hisslərlə böyüdüm. Vətən məni böyüdüb, 8 il mənə baxıb. Bu hisslər o vaxtdan yaranıb. Yəni müharibə olarsa mütləq iştirak edəcəyimi bilirdim. 27-sentyabr əmr alıb tapşırığa getmişəm. oktyabrın 3-ü artıq döyüşə qatılmışam. İlk döyüş Cəbrayılda olub, Füzulidən keçib girmişdik Cəbrayıla. Sonra Qubadlıya ordan da birbaşa Laçın dəhlizinə gedib orda gözləmək



əmrini almışdıq. Biz elə də elədik. Ora qədər də biz düşmən gülləsi altında irəliləmişik.

Bizim iki nəfəri vurdular. Biz təpələrlə qalxırdıq. Qarşıda 3 tank gedirdi, bir tankı vurdular. Biz heyəti düşürdük. Bizə yeni dəstək gəlirdi. Mən onları da maşına mindirdim, amma çox irəli gedə bilmədim, hər tərəf palçıq idi. İrəli getmək üçün yolda olan şəhidi götürmək lazım idi, onun üstündən geçmək istəmədim. Dedim ki, onu kimsə götürsün,ailəsinə olduğu kimi çatdırılsın".

Cavidin axırıncı xatırladığı şəhidin yerdə olduğu məqam idi. Başqa heç nə xatırlamır. Onları da vururlar. Onun maşınını raket vurmuşdu. Uşaqlar yaxınlaşıb onu götürüblər. Anarın vəziyyəti elə olub ki, yaxınlaşmağa qorxurmuş hamı. Amma, Anar özündə olub əvvəl, su istəyib, siqaret istəyib.

Sonra Anarı Füzuliyə aparıblar, ordan da Bakıya Tədris Cərrahiyyə Klinikasına göndəriblər. 14 gün komada olan Anar oyanmağını dəhşətli bir şey kimi xatırlayır. Komada olanda tez-tez yuxu gördüyünü deyir, yuxuda görür ki: "ermənilərin içindədi". Komadan ayılanda da elə bilir ki, yenə də ermənilərin içindədi. Sonra deyirlər ki, hər şey yaxşıdı, bizim yanımızdasan. Qulağı eşitmirdi, gözü görmürdü. Kağız istəyir tibb bacısından, yazdıb soruşur ki, hardayam, tibb bacsı deyir Bakıdasan. Amma, mən inanmır, ona elə gəlir ki, ermənidir ondan məlumat almaq istəyir. Adını, atasının adını soruşurlar cavab vermir. Bir ay sonra inanır ki, Bakıdadır.

Anarın bir qardaşı da var. Anar yaralananda evlərinə xəbər çatır ki, yaralıdı. Anarın çiynində xal var o xaldan tanıyıb ailəsi,



çünki Anar özü haqqında məlumat vermirmiş. Bir gün anası, dayısı və qardaşı gəliblər xəstəxanaya, Anarı onlara göstəriblər, bədəni şiş olduğu üçün onu tanımayıblar. Sonda anası gəlib baxıb, o tanıyıb oğlunu. Başqa necə ola bilərdi ki, bir ana oğlu nə halda olsa belə onu tanıyacaq. Anar deyir mənim burnum yoxdu, bir gözü tamam yoxdu, o biri gözündə sümük yoxdu, bir müddət sonra az da olsa görməyə başlayır. 28 dəfə əmliyyat keçirib Anar. Anar deyir, mən peşman deyiləm, əgər bir gözüm yenidən görsə yenə vuruşmağa gedərəm.

Müharibədən sonra Anar üçün dəyişən onun hörməti, qayğısı daha da artıb. Böyüklərin ona olan hörməti çox olduğu ona qürur verir. Deyir indi həyata yenidən bağlanıram. Həyatı sevə-sevə yaşamaq istəyirəm, bundan sonra. Anar hal-hazırda ancaq müalicəsi ilə məşğuldur.

Anarın döyüş dostu Əhmədov Farizin onun haqqında dedikləri:

“Anar dost kimi, əvəzsiz biridi. O qədər mərd, dözümlü oğuldur ki… Anar yanımda olanda arxamda dağ var idi elə bil. Anarın qulaqları kar olmuşdu, nə qədər eləsəm də qayıtmadı, döyüşə davam elədi. Adamı heç vaxt yarı yolda qoymaz. Güvəniləsi bir adamdı. Anar ayılanda ilk mənə zəng elətdirib mənimlə danışmaq istəyib. Və mən qəhərdən onunla danışa bilmədim. Onda Anarı nə qədər çox istədiyimi başa düşdüm”.

Başq bir əsgər dostu Anar haqqında danışır: ”Biz irəlilədikcə ermənilər durmadan minamyot atırdı. Yolu irəli keçmək üçün qarşıda olan şəhidimizin üstündən keçmək məcburiyyətində idik. Amma, Anar dedi ki, mən bunu eliyə bilmərəm. Anar maşını kənara çəkib başqa səmtlə irəliləməyə cəhd elədi. 100 metr irəliləmişdik ki, düşmən tərəfindən tank əleyhinə silahla vurulduq, maşın 50 metr arxaya atılıb, iki dəfə çevrildi, ətrafı duman bürüdü. Bir təhər maşından çıxdıq, sonra mən yenidən maşına girdim. Anar qan içində qışqırırdı ki, kömək edin. Onun bu vəziyyətinə heyrətdən dondum, amma sonra özümü ələ alıb onu arxa qapıdan çıxartdım. Sonra əsgər distlarımız Əliyev Eldəniz, İbrahimov Rafiq, Quliyev Cəlal, Allahverdiyev Allahverdinin köməyi ilə Anarı başqa maşına gətirib mindirdik, düşmən durmadan atsa da biz Anarı ordan çıxarda bildik”.

Anarla olan söhbətimiz tez-tez qırılırd; ”Mən nədən danışırdım, nə deyirdim”? deyə tez-tez sual verirdi. Mən də yadına salırdım. Qəribədi, bu vəziyyətindən utanırdı, üzr istəyirdi. Uatancaq bir təbəssümlə: ”Başım gedib, nə dediyimi unuduram”.

Olsun Anar, sən nə dediyini unutsan biz sənin yadına salarıq. Amma, biz sənin qəhrəmalığını, bu vətən uğrunda, bu torpaq uğunda canından verdiyin qurbanları heç vaxt unutmarıq.



**BAXŞIZADƏ KAMRAN**

Çağırır indi bütün milləti imdada Vətən.
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.
Bizə meydan oxuyan biməlidir birdəfəlik
Nə satılmaz, nə verilməz binədən yada Vətən.
Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər imzada, sözdə Vətən.

14 oktyabr 1994-cü ildə Xızıda anadan olub.

Sizə sinəsində hər an qəlb kimi döyünən, hər sözündə, imzasında Vətən eşqi, vətən məhəbbəti yaşayan Kamran Baxşızadədən danışacam.

Danışacam ki, vətənimizin mərd oğlunu, necə bir ürək sahibi olduğunu,bizim üçün, Vətən üçün özünü bir an düşünmədən, canını oda atan qəhrəmanımızı yaxından tanıyasınız. Tanıyaq, tanımalıyıq.

Xizida böyüyüb boya-başa çatan Kamran Baxşızadə 1-ci Qarabağ şəhidi Rafiq İsmayılovun adını daşıyan orta məktəbi

bitirir. 2012-ci ildə Naxçıvan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olur. Universiteti bitirən Kamran hərbi xidmətə yollanır. Vətənə borcunu ödəyib 2016-cı ildə hərbi xidmətini başa vurur. Xidmətdən sonra Xızı rayon məhkəməsində dəftərxana müdiri vəzifəsində çalşımağa başlayır. Şəhid adını daşıyan məktəbdə oxuması bütün gənclərimiz kimi Kamranın da vətən məhəbbətini, vətən sevgisini heç bir hisslə müqayisə olunmayacaq dərəcədə güclü edir. 2020-ci ilin 12 iyul tarıxından etibarən Ermənistan Azərbaycan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca başlayan döyüşlər zamanı Kamran könüllü olaraq səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidmətinə gedib adını yazdırır. Əsgərlikdə kəşfiyyatçı olduğu üçün özünün hərbidə yararlı olacağını düşünür.

Hər şey də Kamranın düşündüyü kimi olur. Oktyabrın 5-də Kamrana çağırış gəlir. Və Kamran işdə heç kimə heç nə demədən çağırış məntəqəsinə yollanır. Kamran deyir ki, əgər işdə xəbər tutsaydılar onu tələb olunan mütəxəssis kimi getməyə qoymayacaqdılar. Əsgərlikdə kəşfiyyatçı olan Kamran özünün döyüş meydanında olmağının vacibliyini düşünür. Və düşündüyü kimi də hərəkət edir. Uzun illər torpaqlarımızın düşmən tapdağı altında olması hər bir azərbaycanlı kimi, Kamranı da rahat qoymurdu. İndi o rahatlığa qovuşmaq, torpaqlarımızı azad etmək üçün canını, doğmalarını belə düşünmədən döyüşə yollandı. Fikrində, düşüncəsində, ürəyində tək bir arzusu var idi - torpaqlarımızın azad olunması. 30 il müddətində xalqımızın sınmış qürurunu, əyilmiş qəddini düzəltmək-bundan böyük, bundan müqəddəs bir istək ola bilməzdi.

14 oktyabr Kamranın doğum günü-bəlkə də bu bir təsadüfdü, bəlkə də bizim bilmədiyimiz bir qanunauyğunluqdu. Həmin gün Cəbrayıl uğrunda gərgin döyüşlər gedirdi. Bir xeyli irəliləyib, düşməni məhv edirdi Kamrangilin dəstəsi. Postları ələ keçirərək irəli

gedən Azərbaycan əsgərlərini düşmən tərəf görür və onları nişan alır. Birdən güclü bir partlayış baş verir. Bu düşmən tərəfindən atılan minamyotun nəticəsində yaranan partlayış idi. Bir anlıq sükut və hər tərəf qaranlığa qərq olur. Kamran elə bilir ki, şəhid olur. Kəlmeyi şəhadətini oxuyandan sonra huşunu itirir. Bir xeyli zaman keçəndən sonra Kamran özünə gəlir, əvvəlcə elə bilir ki, ayaqlarını itirib, əlləri ilə ayaqlarına toxunanda ayaqlarına heç nə olmadığını başa düşür. Heç nə görməyən Kamran anlayır ki, gözlərinə nəsə olub, əlləri ilə üzünə toxunur, heç nə anlamr, bircə bildiyi o olur ki artıq görmür. Kamran qışqırır ki, "mən görmürəm". Onun səsinə heç kim səs vermir. Kamran əvvəlcə elə düşünür ki, əsir düşüb. Bütün baş verənlər o qədər qarışıq, o qədər anlaşılmaz idi ki, heç nə başa düşmürdü. Sadəcə beynindən keçən fikirlər idi. Bu qədər hadisənin içində Kamran avtomatını belə əlindən buraxmır.

Neytral zonada olan Kamran xeyli sürünərək zonadan çıxır. Amma, hara tərəf süründüyünü bilmir. Bir müddət süründükdən sonra uzaqdan danışıq səsləri eşidir. Amma, danışanların bizimkilərin yoxsa ermənilərin olduğunu başa düşə bilmir. Kamran deyir ki,:" Güllə saxlamışdım, əgər əsir düşsəydim, özümü vuracaqdım", buna görə də səs gələn tərəfə xeyli sürünür, sonra danışıqlara diqqətlə qulaq asır, danışanların bizim əsgərlər olduğunu başa düşür. Bu arada bir səs eşidir: "Kamran biz burdayıq, səni qurtaracayıq, narahat olma".

Qəribədir gözlərini itirən Kamranın döyüş yoldaşlarına verdiyi sual adamı düşünməyə vadar edir. "Necə vuruşdim mən? Dostlarının cavabı - Canavar kimi". Əslində bu sualın özü artıq Kamranın necə bir ürəyə sahib olduğunu,necə bir qəhrəman olduğunu deyir.




14 oktyabr Kamranın doğum günü-bu gün Kamran ölümdən dönüb yenidən doğulur. İki gözünü itirən Kamran əsil Vətən oğlu, əsil, Azərbaycanlıdır. Hər zaman hər kəsi gülərüzlə qarşılayar. ”Vətən yolunda göz nədir ki, canımı belə verərəm”. Bu sözlərin qarşısında adamın nitqi quruyur. Dünyanın ən şirin neməti olan iki gözündən keçən Azərbaycan əsgəri, duruşunda qürur, üzündə təbəssüm, ürəyində vətən sevgisi…

Qəribə də olsa canını vətənə fəda edən əsgərlərimiz, qazilərimiz özləri haqqında çox danışmağı sevmirlər. ”Vətənə borcum idi, kim azad etməli idi ki, torpaqlarımızı”? çoxundan bu sözləri eşidirik. Kamran da bütün əsgərlərimiz kimi, “neynəmişəm ki, iki göz nədir ki, vətən yolunda. Şəhidlərimiz olan yerdə bizim danışmağımız düz olmaz” deyir.

Sizə Kamrandan danışdım-iki gözü vətən yolunda şəhid olmuş, qəhrəman Kamrandan. Danışdım ki, tanıyasınız, tanıyaq və unutmayaq qəhrəmanlarımızı.



**DADAŞOV ELTON**

02 sentyabr 2001-ci ildə Bakı şəhərində anadan olub.

Elton xəstəxanada Amilin gözləri görməyəcək deyə hönkürüb ağlayan qazimiz, özü üçün yanmayıb, əsgər yoldaşı üçün yanan dağ boyda ürəyi olan, sözün əsil mənasında cəsur vətən oğlu, vətən fədaisi, vətən qazisi. Zaman keçəcək, Elton və minlərlə Elton kimi igid əsgərlərimizin qəhrəmanlıqlarını uşaqlarımız kitablardan, əsərlərdən oxuyub, filmlərdə seyr edəcəklər. Onların keçirtdikləri hissləri onlar hiss etdikləri kimi ifadə eləmək üçün yalnız və yalnız onlar kimi döyüş meydanında olub ən əziz ürək dostunun şəhid olduğunu görüb, ona yaxınlaşa bilməyəndə, son sözünü eşitmək istəyib ayaqları sınıq olduğu üçün ona çata bilməyəndə …yalnız bu hissləri canlı-canlı yaşayanda tam ifadə etmək olar…Bəzi hissləri yaşamadan olduğu kimi çatdımaq çox çətindir. Çətin də olsa Eltonun yaşadıqlarını və hiss etdiklərini qələmə aldıq.

2020-ci ilin sentyabrında Elton artıq bir il idi ki, hərbi xidmətdə idi. Onlara müharibənin ola biləcəyini və buna görə də ciddi təlimlər keçdiklərini deyir Elton.Təlim keçdiklərinə baxmayaraq, döyüşdə iştirak edəcək ehtiyat tağımları var idi. Ehtiyat tağımında olan Elton orda qalmaq istəmədiyini və mütləq döyüşlərə qatılmaq istədiyini deyib, döyüşlərə qatılmaq üçün müraciət edir və beləliklə döyüşlərə könüllü qatılır. Artıq 27 sentyabrdan döyüşlər başlayanda Eltonda döyüşən əsgərlərlə birgə irəliləməyə başlayır.

Müharibənin necə olacağını təsəvvür edə bilmir. Döyüş tapşırığı gələn kimi döyüşlərə qatılan Elton 21 yaşında müharibədə iştirak edəcəyini, qazilik kimi müqəddəs məqama yüksələcəyini təsəvvür etmirdi. İndi də o günlərdən danışanda, həyəcanını gizlədə bilmir. Həyəcanı isə özü üçün deyil, yanında şəhid olan döyüş dostları üçündü. Oğuzdan olan əsgər dostu Şirəlizadə Süleyman Eltonun ən yaxın dostu olub. O, da bütün əsgərlərimiz kimi torpaqlarımızın mənfur düşmənlərdən azad olunmağını arzulayırmış. Süleyman deyirmiş ki, şəhid verməyənə qədər mən inanmaram ki, müharibə başlayb. Elton deyir, elə ilk şəhidimiz də o olur. Özü də yaralanan Elton Süleymana tərəf gedə bilmir. Çox pis olur ki, son nəfəsini verəndə Süleymanın yanında ola bilmir, son sözünü eşidə bilmir. Eltonun qolu, ayaqları minamyotun qəlpələrindən sınmışdı. İlk əvvəl, yaralandığını hiss eləməyən Elton, ayağa qalxmaq istəyəndə görür ki, qan gedir ayaqlarından, sol qolunu tərpətmək istəyəndə baxır ki, qolu sallanır. Yanında olan əsgər Xanışlı Amil onun qolunu bintlə birtəhər bağlayır. Ona deyir ki, narahat olma buradan çıxa biləcəyik. Elton döyüş yoldaşlarının aqibətini bilmək istəyir, özü yaralansa da, onlaradan çox narahat olur. Onların vəziyyətini bilmək istəyəndə başını qaldırır, elə bu vaxt atılan minamyot qəlpəsi onun gözünə dəyir, başa düşür ki, nəsə oldu gözünə. Yanındakı əsgərə deyir ki, gözüm düşdü deyəsən, amma

əsgər deyir sənə elə gəlir, gözünə qan tökülür. Amma, Elton deyir bəs bu biri gözümə də qan tökülür, niyə görürəm? Ermənilərlə məsafələri yaxın olduğundan əsgər deyir sakit ol. Elton deyir o an üçün heç bir qorxum yox idi. Dedim, şəhid olaram da nə gözəl. Eltonun istədiyi tək ağrı hiss etməməsi idi. Deyir ölməkdən qorxmurdum, iynələrin təsiri keçmişdi deyə ağrı hiss edirdim. İstədiyi ağrısız rahat ölmək idi. Bu vaxt sanitarka gəlir, amma onları da vurur ermənilər. İkinci sanitarka iki saatdan sonra gəlir. Sanitarkaya qoulanda artıq ağrıdan ürəyi gedir. Elton bir də gözünü Bərdə hospitaında açır. Sonradan bilir ki, onu əvvəl Tərtərə, sonra Ağdama, sonra Bərdəyə gətirilər. Bərdədə 3 əməliyyat keçirdir Elton. Bərdədən sonra Ucara, ordan Zərdaba, sonra Göyçaya ordan da Bakıya göndərirlər Eltonu. Cərrah Anar Rəhimov kənardan gələn həkimlər içində olur. O, Eltona deyir ki, istəyirəm səni öz xəstəxanamda əməliyyat edim. Amma, Anar həkim: ”ola bilsin ki, gözünü xils edə bilməyək” deyir. Elton cavabında: ”Nolar ki, qurban olsun gözüm vətənə. Əməliyyatdan sonra Anar həkim məni görüb başını yelləyəndə analadım ki, gözümü amputasiya ediblər. Amma, olsun, biz onu bilirdik ki, şəhid də ola bilərdik”.

Elton, müharibədə gördüklərini danışmağa əziyyət çəkir. Gözünün qarşısında şam kimi yanan adamlar görən Elton deyir ki: ”O zaman üçün qorxu hissi yoxa çıxır adamda. Yeganə hiss irəli getmək olur. Qorxu nə vaxt yaranır soruşanda, Elton deyir can şirindi, amma yaralanandan sonra qorxur adam. Əsir düşmək istəmir adam. Bir birimizdən güc alırdıq, bir birimizə ürək dirək verirdik. Çox kömək olurduq bir birimizə”.

3 qardaşdan ən böyüyü olan Elton xəstəxanada gözünü açanda telefon istəyib, dostuna zəng edir. Dostu soruşur ki, səsin niyə xırıldayır? Elton deyir hər şey yaxşıdı, sadəcə yuxusuzam. Sonra narkozun təsirindən ya nədən deyir ki, əlimi ayağımı itirmişəm.

Dostu hönkürüb ağlayır. Əslində Elton narkozdan yeni ayıldığına görə nə vəziyyətdə olduğunu tam dəqiqliklə bilmir.

Sonra anasına zəng edib, deyir ki, heç nə olmayıb mənə. Amma, anası o Zərdabda olanda gəlib onu tapir. Anasına çox bağlı olan Elton deyir: ”Mən sevgimi bildirə bilmirəm, amma anama bir şey olsa dözə bilmərəm”.

Amildən danışır, xaricdən gələn həkim onu müayinə etdikdən sonra başını təəssüf hissi ilə yelləyəndə, Elton qışqıra-qışqıra ağlamağa başlayır. Amil deyib mənə görə ağlayırsan, deyib yox. Sonra çıxıb ayaq yoluna gedir. Eltion orda da hönkürüb ağlayır, o qədər ağlayır ki, sudoroqa keçirdir.

Elton deyir: ”Dünyanın ən gözəl neməti gözdür. Amilin bundan məhrum olmağı mənə çox pis təsir edir. Elton deyir əgər mümkün olsa bir gözümü ona verərəm, mən anamı, gördüm, amma o görə bilmədi”.

Elton danışdıqca nə qədər səmimi olduğu hiss olunur.

Adam bu cavan uşaqlarda olan mərdliyə, dəyanətə, bu boyda böyük ürəyə heyran qalmaya bilmir. Və bu zaman anlayırsan ki, vətənin vətən olmağı üçün belə Vətən oğulları olmalıdır - AZƏRBAYCAN OĞULLARI.

## ƏLİYEV AMİL



25 may 1998-ci ildə Bakıda Novxanı kəndində anadan olub.

Amil danışdıqca adama elə gəlir ki, müsahibinin 24 deyil 50 yaşı var. Bu yaşda bu qədər təmkin, sakitlik, müdriklik hardandı görəsən? Bəlkə ölümdən dönmüş bir gənc artıq müdrikləşir, yaşamağına 1% ümidin qaldığı Amil möcüzə nəticəsində həyata dönür. Danışır, səbirlə, aramla, o danışdıqca düşünür adam; "Necə sığışır bu balaca cüssəyə o boyda igidlik, qəhrəmalnlıq"? Bu məqamda məni düşündürən sualın cavabını dəyərli şairimiz İlqar Fəhmini sətirləri piçıldayır.:

Yox əlli yaş azdı, yüz yaş, beş yüz yaş
Bircə saniyədə qocalır adam
Səngərdən qalxanda, öz boyundan da,
Beş yüz dəfə artıq ucalır adam.
Ucalır, yüksəlir buludlaracan
Ona güllə çatmır, mərmi yetişmir
Səngərdən hucuma qalxan saniyə
Uşaqlar dəyişir, Vətən dəyişmir.

Amil məhz bu misralardakı kimi böyüyüyb, ucalıb. Səngərdən, səngərə, döyüşdən, döyüşə. Bu döyüşlərə can atıb Amil, əsgərliyə getməyə can atıb. Səhhətində olan problemə rəğmən. Onurğasından əməliyyat olunan Amil əsgərliyə aparılmayacağını eşidəndə sanki üsyan edir. Amil əsgərliyə getməyəcəksən fikrini heç cür qəbul edə bilmir, sığışdırmır özünə. Uşaq vaxtından: "Mən böyüyəndə əsgər olub ermənilərlə vuruşacam" deyib. Necə deyərlər: "Niyyətin hara mənzilin də ora". Niyyətinə, arzusuna çatıb Amil.



2019 cu ildə oktyabrın 22-dən hərbi xidmətə başlayır. 2020-cil il Yanvarın 2-si Tərtər rayonuna göndərilir. Amil müharibə başlayanda döyüşlərə könüllü qatılır. Komandirləri razılıq verməsə də burada da Amil təkid edir. 2020-cil sentyabrın 27-dən Ağdərə Suqovuşan istiqamətində döyüşlərə başlayırlar. Yəni müharibənin ilk günündən. Amil ən qızğın döyüş meydanında olub. Sentyabrın 29-u minaya düşür. Döyüş yoldaşı şəhid olur, artıq minaya düşən Amil heç nə hiss eləmir. Amili komandirləri baş leytenant İlkin Məmmədzadə, Səttarov Əli, Əhmədzadə Zaməddin xilas edir. Bir də Bakıda oktyabrın 5-i axşam komadan ayılır. Ayılan kimi ilk axtardığı adam komandiri, baş leytenant Məmmədzadə İlkin olub. Komandiri ilə danışanda Amilin ilk sözü: ”Necəsən komandir, əsgərlər necədir? Komandir də hər şeyin yaxşı olduğunu deyib, sonra da Amilin vəziyyəttini soruşub. Amil: ”Mənim gözlərim görmür” deyir. Komandiri İlkin: ”Narahat olma, hər şey yaxşı olacaq” - deyərək Amilə ürək-dirək verir… Ayın 7-də isə komandiri Məmmədzadə İlkinin şəhidlik xəbərini alır. Amilin ən çox üzüldüyü döyüş yoldaşlarının, komandirinin, əsgərlərin şəhid olmağıdı.

İki gözünü itirən Amil bunu adi qəbul edir. Deyir biz belə böyüdük-torpaqlarımızın işğal gününü məktəbimizdə matəm günü kimi qeyd edərək, xalqımızın əzab verilən fotolarından divar qəzeti düzəldərək, müəllimlərimizin o dəhşətli hadisələrdən danışdıqlarına qulaq asaraq böydük. İldən-ilə içimizdə düşmənə nifrət, qisas hissi bizimlə birgə böyüdü. Gözlərimi itirmişəm-amma vətən yolunda olub, başqa nə düşünə bilərəm ki? Bu bizim borcumuz idi. Bunu adi qəbul edən Amil - 11-ci sinifi bitirəndə hamının ən çox

işlətdiyi söz nə olacaq soruşanda deyir - HƏYATDI DA. Amil: “indi də deyirəm - HƏYATDI DA”.

Uşaqlıqdan kim olacaqsan soruşanda-əsgər olacam deyən Amil iki gözünü itirməyini qəbul edib. Barışıb bu vəziyyəti ilə. Amilin həyat eşqi sönməyib-idmanla məşğuldu. Elə həvəslə danışır ki, adam onun yanında sanki həyat dərsi alır. İnsanlar nələri özlərinə dərd edirlər. Adi məişət problemlərini dərd edib yaşayanlara Amilin dedikləri bir həyat dərsidi. Böyük qardaşı hərbiçidi. Bunu elə qürurla deyir ki, Amil. Sanki biz Vətənin oğullarıyıq kimi səslənir dedikləri. Özü üçünsə deyir ki, əgər bir gözüm belə açılsa, ehtiyac olarsa yenə də hərbiyə gedərəm.

Amilin ən böyük arzusu: ”Əgər nə vaxtsa gözlərimdən heç olmasa biri açlsa, gedib azad etdiyimiz torpaqları görməkdi”. Bu sənin haqqındı Amil, ən çox sənin və sənin kimi canını vətəninə qurban edən qazilərimizin, əsgərlərimizin haqqıdı.

İndi isə Sumqayıtda dzudo ilə məşğuldu, Yengibar müəllim, Pərviz müəllim, Afiq müəllimlə məşğul olur. Paraolimpiya oyunlarında iştirak etmək istəyir. Həyatdan ümidini üzməyib.

Amil kimi qazilərimizin həyatdan ümidlərini üzməmək üçün hər bir azərbaycanlı əlindən gələni eləməlidir: qayğı, diqqət, sevgi, minnətdarlıq.

Əslində onlar bizdən heç nə istəmirlər. Borcumuzu yerinə yetirdik deyirlər.

Amilə baxıram səbirli, dözümlü, sakit. Sinəsində də onu xilas edən komandiri baş leytenant Məmmədzadə İlkinin şəkili. Bu mənzərə qarşısında adam deməyə söz tapmır. Bəli Amil, eynilə sənin dediyin kimi, hərənin qismətinə bir tale yazılır. Bu da sənin yaşadığın qürur dolu, igidliklə yaşadığın – HƏYATDI DA.



**ƏHMƏDOV NƏCMƏDDİN**

1995-ci il 16-da iyul Tərtər rayonunda anadan olub.

“Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil, siz onlara Vətəni tanıdın-özləri sevəcəklər”. Bu sözlərin dəyərini qəhrəmanımız qazi Nəcməddin Əhmədovun həyat hekayəsi ilə tanış olanda biləcəksiniz.

Orta məktəbi bitirib hərbi xidmətə yollanıb Nəcməddin. Zirədə hərbi xidmətə başlayıb, 3 aylıq kurs keçib sürücülük üzrə. Deyir: ”Kursu bitirdikdən sonra bir müddət Kürdaəxanıda xidmət etmişəm, sonra raket bazasına göndərilmişəm. Orada bizə raket qurğusu ilə rəftarı öyrədirdilər. Verilən tapşırıqların öhdəsindən yaxşı gəldiyimə və xidmətdə fərqləndiyimə görə hərbi hissə komandiri İmran Əliyev tərəfindən fəxri fərmanla təltif olumuşam”.



Nəcməddinin ən böyük arzusu Ağdamı görmək olub: ”Uşaqlıqdan evdəkilər Ağdam haqqında o qədər danışıblar ki, mən xəyalımda böyütmüşəm oranı”. Ağdamı görmək mənim üçün əlçatmaz bir arzuya çevrilmişdi. Bəlkə də torpaqlarımızın azad olunmasında o qədər ürəklə iştirak etməsinin bir səbəbi də Ağdam sevgisi olub. Yəni deyildiyi kimi ona vətəni tanıdıb ailəsi, Nəcməddin də Vətənini sevib. Canını qurban verəcək qədər çox sevib Vətənini.

2020 sentyabrın 21-də komissarlıqdan zəng gəlir, təlimə çağırırlar. Nəcməddin deyir: ”Amma, əvvəldən hiss elədim ki, müharibə başlayacaq. Dayım oğlu və anamın xalası nəvəsi ilə bir sinifdə oxumuşam. Üçümüz də birlikdə getdik. Ən birinci mən maşına minib getdim. Evdən çıxanda sağollaşmadım, anam təzə əməliyyat olumuşdu deyə istəmədim narahat olsun. Bir də ora çatanda xəbər elədim ki, çatmışıq hər şey yaxşıdı.

Bizi Ballı qayaya apardılar Ağcakəndə, Murov tərəfə. Gedən kimi bizə gecə ilə hərbi forma geyindirdilər. Bir neçə gün təlim keçdik. Sonra hərbi hissə komandiri bizi yığıb hssələrə böldülər. Bizim hissəni Tərtərə apardılar, 26 sentyabrda biz artıq hərbi hissədə tağımda idik. Axşamüstü hamını topladılar. Tapşırıq verilmişdi ki, hərbi hissə boşalmalıdı. Gecə ilə meşəyə yığdılar bizi. Hava da soyuyurdu. Ağacların arasında texnikalar gizlədilmişdi. Gecəni bir təhər yatdıq. Səhər saat 7-də müharibə başladı.” O, anı nə hiss elədin soruşanda: ”Nə hiss etməli idim ki? Bu bizim borcumuz idi. Vətən bizə əmanət idi. Başqa nə düşünə bilərdim ki, mən eləcə də döyüş dostlarım”. Nəcməddinin ilk döyüşü Çaylıdan başlayır. Ordaan qrup şəkilində irəli getməyə başlayırlar. Qərərgah

rəisimiz var idi Sərkərov Roman. Onumna birlikdə irəliləyirdik. Çox igid adam idi. Biz neytral ərazini təmizləməli idik ki, quru qoşunları hücuma keçsinlər. Döyüş zamanı artıq o əhvalda olursan, yəni adam daha da irəli getmək istəyir. Heç bir qorxi hiss etmir adam. Düşmənin minamyotu çox güclü idi. Durmadan atırdı. Məcbursan, artıq diqqətli olub irəli getməlisən. Bizim işimiz keçidi açmaq idi. Minamyotun səsi qulağımızda cingildəyirdi. Buna baxmayaraq biz üzərimizə düşən vəzifəni yerinə yetrməliyik. Çünki arxadan quru qoşunlar gəlib hücuma keçməli idilər. Biz arxaya keçdik bir az ara verməli idik. Bizi əvəz etdilər. Hərbi hissənin zampoliti kimsə irəli getməlidir deyəndə mən gedərəm dedim, mənimlə bərabər 4 nəfər də getdik. Səhər açıldı, hələ gözləyirik. Artıq Talışkənd alınmışdı. Bir xeyli düşmən texnikasını ələ keçirtmişdi uşaqlar. Bax elə məqamda adam daha da güclənir, ürəklənir. Artıq düşmənin gücsüzlüyünü hiss edirsən. Amma, texnika gətiriləndən sonra düşmən tərəfdən atdılar, bu vaxt mən də yaralandım, qolumnan. Amma, o biri yarlılara da kömək eləmək lazım idi. Yaralı ola-ola onları da çıxardıb sanitarkalara yerləşdirdik. Sonra məni də apardıar ki, yaralısan. Sarıcalıya apardılar. Yaramı bağlayandan sonra geri qayıtdım, 1 gün sonra. Oktyabrın 12-si idi, biz irəli gedirdik. Yanımıza minamyot düşdü. O, vaxt yaralandım, başımdan. Sarıcalıda özümə gəldim, ilkin tibbi yardım göstərdilər". Başından yaralanan Nəcməddini Gəncəyə gətirirlər. O günləri belə xatırlayır Nəcməddin: "10 gündən sonra başa düşdüm ki, bir gözüm tamam görmür. Əsas başımda olan qəlpələr məni narahat edirdi. Heç bir peşmaçılığım yoxdur-deyir. Lazım olsa yenə gedərəm. Bəs bu Vətəni kim qorumalıdı. Bizdən başqa kim gəlib qoruyacaq bizim torpaqlarımızı".

Nəcməddin danışdıqca hərdən dayanır. Yadından çıxır danışdıqları, sonra yenə də başlayır. Sonra üzr istəyir ki: ”Yaddaşım gedir gəlir üzürlü sayın. Hərdən belə olur. Danışdığım yerdə yadımnan çıxır”.

Nəcməddin demək istəməsə də hiss olunur ki, əsəbləri də pozulub, aldığı xəsarətdən. Amma, çox razılıq edir: “sağ olsun dövlətimiz müalicəmizi edirlər, maddiyyatını qarşılayırlar”. Psixoloqlarla görüşündən danışır, ona çox köməyi olduğunu vurğulayır.

Nəcməddin hələ də müalicəsini davam etdirir. Amma, buna baxmayaraq işləyir. Azərsun da işlə təmi olunub. Çox razılıq edir. Ona Azərsunun rəhbrliyinin çox qayğı və diqqətlə yanaşmasından böyük ehtiramla danışır.

Vətən sevgisi ona hər çətinliyin öhdəsindən gəlməyə kömək edir. Bunu onun danışığından, səs tonundan, üzünün ifadəsindən hiss etmək çətin deyil. Nəcməddinin baxışları aşağıdakı misraların təsdiqidi sanki:

Yaşasın Azərbaycan, düşmənləri xar olsun,
Uğrunda verərik can, təki Vətən sağ olsun.



## ƏHMƏDOV SAMƏDDİN

26 sentyabr 1998-ci ildə Bakı Qaradağ rayonunda anadan olub.

Qarabağ Qartalı Əhmədov Samədin… Hər bir qazimizin, şəhidimizin qazandığı bir həyat hekayəsi var bu 44 günlük müharibədə. Yeni həyat, yeni tale, hər şeyə fərqli baxış. Həyata tutunmaq üçün qürur, güc və ən əsəs da Vətənə olan sonsuz sevgi. Bəlkə də ən birinci yaşamaq səbəbləri vətən yolunda olan borclarını ləyaqətlə ödəməkləridi.

Şəhid Fəzail Qədimov adına 220 saylı orta məktəbi bitirdikdən sonra, 2016-ci il oktyabrın 7-si əsgərliyə gedib Samədin. Əsgəir xidməti Tərtər rayonunda keçib. 2018-ci il 12 aprel tarixində əsgərliyi bitdikdən sonra yaşadığı Sanqaçal qəsəbəsində müddətdən artıq hərbi xidmətə başlayıb. 2020-ci il General Polad Həşimovin ölümündən sonra artıq mütləq müharibənin başlayacağına inanırdı və gözləyirdi. Amma, çox adam ona inanmırdı.



Sentyabrın 26-sı 2020-ci ildə Samәddingilin hərbi hissəsindən 5 qrup seçildi, 3 qrupu əvvəl sonra isə 2 qrupu döyüş tapşırığına göndərdiər... Samәddin də 2-ci qrupla oktyabrın 4-də Beyləqan istiqamətində, sonra isə Füzuli istiqamətində irəlilədi. Sonra isə Samәddinin olduğu qrupu xüsusi təyinatlılara verdilər. Samәddin orda mühəndis istehkamçı kimi xidmət edirdi. Füzuli istaqəmətindən sonra Cəbrayıl istiqamətində irəliləməyə başlayırlar. Əvvəl minaları təmizləyirdilər ki, sonra əsgərlər gəlirdilər.

Ayın 29-dan Şuşaya doğru irəliləməyə başladılar. Samәddin ermənilrin onlardan necə qorxduqlarından ürəklə danışır. Ayın 30-u artıq Şuşaya doğru dağlarla, meşələrlə irəliləyirdilər. Ermənilər qorxularından qaçırdılar. Şuşa şəhərinə noyabrın 6-sı daxil olurlar. Samәddin noyabrın 4-ü yaralansa da əsgrələrimizin Şuşaya daxil olmağından ürəklə qürurla danışır. Samәddin Şuşanın axırıncı kəndinə qədər gedib çatır. O, minaya düşən əsgəri xilas etmək üçün gedəndə minaları təmizləyir və qayıdarkən minaya düşür. Sol ayağı minaya düşür yanır, sağ ayağını da ikinci mina parçalayır. Samәddin belə xatırlayır.: ”Minaya düşəndə Allaha şükür elədim ki şəhid oluram, amma olmadım, qazı oldum. Gözlərimin yandığını hiss elədim. Sonra hərbi qulluqçularımızın səslərini eşitdik. Onlar da bizim səsimizi eşitdilər, mənimlə bilrlikdə 30 nəfər əsgəri kamaz texnikası ilə xilas etdilər. Ağoğlan istiqamətində irəlilədik. Orda mövqeyimiz var idi həkim gizir Bədəlov xüsusi təyinatlıların həkimi mənə morfi vurdu ki, ağrılara dözüm, sonra yenidən kamaza

qoydular məni, yenidən Ağoğlan istiqamətində irəlilədik. Orada mənə ilk tibbi yardım göstərdilər. Ayağımı sarıdlar. Sonra Cavidin səsini eşitdim, Tibb universitetinin 5-ci kurs tələbəsi, dedi ki, narahat olma mən səni burdan aparacam, məni sanitar maşınına qoyub Füzuliyə apardılar hərbi hospitala, orada sol ayağım amputasiya etdilər… Sağ ayağıma isə Yelizarov aparatı yerləşdirdilər. Ordan sonra məni Bakıya hərbi hospitala yerləşdirdilər. Ayın 8-i gözümü əməliyyat etdilər. Anar Rəhimov qoymadı gözümü çıxartsınlar. Dedi ki, bu uşaqda irəliləyiş olacaq. Orada Elədniz həkim sağ ayağımın kəsilməyinə imkan vermədi. Sadəcə iki barmağımı amputasiya etdilər. Sonra pəncəmi saxlamaq üçün əməliyyat etdlər. Dekabrın 20-si məni Zərifə Əliyeva adına göz xəstəxanasına yerləşdirdilər. Mənim Gözüm üçün çox çətin tapılan göz donoru əməliyyatını elədilər. Cəmil həkim, Müşfiq həkim əməliyyat etdikdən sonra sol gözümdə işıqseçmə və sağ gözümdə də işıqseçmə var“.

Saməddin bütün ona kömək edən həkimlərə çox təşəkkür edir. Adam inana bilmir ki, ayağını, gözlərini Vətən, xalq yolunda qurban verən bu gənc bu qədər minnətdarlıq edir.

Saməddinin ailəsinə xəbər ilk əvvəl şəhid olduğu xəbərini veriblər. Anası deyib; ”Şəhid olmağına razıyam, amma əsir düşməsin”. Ayın 7-si Saməddin özü zəng elədi. Anası danışır: ”telefonda mama dedi, dedim sən kimsən? Dedi - mama mənəm Saməddin. Amma, ilk əvvəl inanmadım. Sonra səsindən tanıdım. Allahdan bir istəyim var gözünün nuru qayıtsın”. Ananın bu mərdliyi, qüruru adamda bir fikir yardır. Belə ana belə də oğul böyüdər-igid, mərd, qorxmaz.

Saməddin çox sakit danışır, rahatdı. Noyabrın 9-da Şuşanın azad olunduğunu eşidəndə hönkür-hönkür ağadım deyir. Sevincdən ağladım.

Heç kimdən heç bir istəyi, tələbi yoxdur. Bu müharibəni gözləyirdik deyir. Biz Qarabağı görməsək də o bizim vətənimizdir. Biz onu azad etməli idik. Belə böyüdüldük, belə tərbiyə olunduq. İlk əvvəl komandirlərindən çox razılıq edir. Komadan ayılanda ilk əvvəl, anasına zəng etmək stəyib ki, anam çox narahatdı onunla danışmaq istəyirəm deyib, valideyinlərinə çox təşəkkür edir. Anasına atasına onu belə böyütdükləri üçün təşəkkür edir. Atasının ona hər zaman dəstək olduğuna görə hər zaman özünü ona borclu sayır.

Saməddinin tək istəyi: ”Şəhid ailələrinə diqqətli olun, unutmayın onları. Qazilərimizi unutmayın. Dövlətimiz əlindən gələni qazilərə, şəhid ailələrinə edir. Amma, xalqımızın mənəvi qayğısına çox ehtiyacı var şəhid ailələrinin, qazilərin”.

Çox şükürlüdü Saməddin, bu günkü gününə də şükür edir. Minnətdardı həkimlərinə, komandirlərinə minnətdarlıq edir. Ümidlidi Saməddin gözlərinin açılacağına ümid edir. Saməddin yanında olan bütün insanlara, dostlarına, sinif yoldaşıalrına minnətdardı.

Biz isə bütün Azərbaycan xalqı olaraq Saməddinə və minlərlə əsgərlərimizə, qazilərimizə, şəhidlərimizə-MİNNƏTDARIQ.



## GÜLMƏMMƏDOV XALİD

15 iyun 1980-ci ildə Cəbrayıl rayonunda anadan olub.

1993-cü ildə Cəbrayıldan qaçqın düşəndə artıq Xalidin 13-yaşı var idi. Yəni baş verənlərin, düşmənlərin xalqımıza yaşatdıqlarını çox gözəl dərk edirdi. Artıq bu yaşda onun yaddaşına həkk olunur Cəbrayıldan əhalinin dogma kəndlərini tərk etdikləri gün. Cəbrayıldan çıxıb Füzulidə yerləşirlər. Daha sonra Xalidgilin ailəsi Saatlıda məskunlaşır, bir müddət sonra isə Sumqayıta yerləşirlər. Atasının işi ilə əlaqədar, Sumqayıta gələnə kimi Xalid 16 məktəb dəyişir. Beyləqan Daşburun, İmişli, Əli bayramlı, Saatlı və Sumqayıt. Sonda Sumqayıt 3 saylı orta məktəbi bitirir. Sumqayıtda 3 ay yaşayandan sonra Bakıya köçürlər. Orta məktəbi bitirəndən sonra hərbi xidmətə başlayır. Xalid hərbi xidmətini Müdafiə Nazirliyində mühafizə kolonunda keçir. General Kazbek Qurbanovun sürücüsü olub.

Hərbi xidmətdən sonra Xalid 2011–ci ildən Almaniyadan maşın gətirməyə başlayır. 2013-cü ildən Bakıda yerləşən ərəblərin şirkətində işləməyə başlayır. Sonra orada işinə davam edərək özü üçün iş qurur. Xalid işində çox uğur qazanır. Zəhmət çəkməkdən yorulmur, yetər ki, məqsədlərinə çatsın. Hər zaman iş başında olub.

Üç oğul atası olan Xalid övladlarına çox gözəl bir örnəkdir: vətənpərvər bir insan, gözəl ailə başçısı, vətənpərvər bir qəhrəman kimi.

Çətin qaçqınçılıq həyatından sonra çox böyük bir zəhmətlə iş quran Xalidin Vətən sevgisi hər şeydən öndə olub. Vətən sevgisi, torpaqların azad olması hər zaman bir nisgil olub ürəyində.

Xalid danışır: ”General Polad Həşimovun şəhid olması xəbərini Bakıda eşitdim. Həmin vaxt ayın 13-ü bağa gedirdik. Yolda gələn kolonu gördüm və başa düşdüm ki, bu həmin kolondur. Həmin gecə yata bilmədim. Müharibə başlayan günü də yoldaşım və kiçik oğlumla bağda idim. Müharibə başlayan günü internet işləmədi. Türk kanalına baxanda öyrəndim ki, müharibə başlayıb. Bağda mənim bir UAZ-ım var idi. Onu məndən neçə dəfələrlə almaq istəyiblər, amma satmadım. Onu Bakıya gətirdim. Təmir elətdirdim. Artıq beynimdə plan qururdum. Gələn kimi orduya yazıldım onlayn. Amma, heç bir xəbər çıxmadı. Mən UAZ-ı təmir etdikdən sonra işlədiyim şirkətdə Ərəblərdən tibbi lavazimat istədim, sağ olsunlar etiraz etmədilər, 8 min manatlıq system şlanqı, şpris, ağrıkəsici verdilər. Getdim Əhmədbəyliyə tibbi ləvazimatları təhvil verdim, qayıtdım.

Hər gün gözləsəm də bir xəbər çıxmırdı, məni nə vaxt səfərbərliyə çağıracaqlarını gözləyirdim. Yenə də bir xəbər çıxmadı, mən yenə də 3-4 min manatlıq tibbi ləvazimat götürdüm getdim Tərtərə. Orada bir tanış var idi o məni keçirtdi, təhvil verdim qayıtdım. Yenə də bir xəbər çıxmadı. Bacım oğlu Ağcakənddə, Murovda 701-də xidmət edirdi, bizim facebookda səhifəmiz var, ordakı dostlarla 14 tır təkər göndərmişdik, mən 2 tır təkəri bu hərbi hissəyə göndərmişdim.

Artıq çağırış gözləməyə səbrim çatmırdı.

Gəldim evə hərbi formam da var idi geyindim, anama demədim, desəm də bir söz deməzdi. Yoldaşıma da dedim ki, gedirəm. Heç bir təpki vermədi, çünki dediyimi edəcəyimi bilirdi, sadəcə xeyir-dua verdi. Mən 4 dəfə gedib qayıtdım. Sonuncu dəfə

gedəndə nəsə hiss elədim, halallaşıb getdim. Yenə maşını doldurub hərbi hissəyə apardım. Hərbi hissəyə gedəndə dedim ki, çıxmayacam. Hərbi hissədə bir nəfərdən başqa könüllü yox idi. Həmin adam da oraları yaxşı tanıdığına görə yanlarında bələdçi kimi saxlamışdılar.

Nə qədər etdimsə dedilər adın siyahıda yoxdur, yaşın düşmür. Mən məcbur hərbi hissədən kənarda maşında gözləməyə başladım. Gecə UAZ-da yatdım. Bir maxe var idi mənə yaxınlaşıb dedi ki, məni apar Naftalana, dedim baş üstə, aparıb maxeni Naftalana çatdırıb qayıdıb gəldim. Axşam zampolit məni gördü. Yaxınlaşıb burda niyə dayandığımı soruşdu. Xidmət etmə istədiyimi eşidəndə, olmaz dedi gedin. Dedim bacım oğlu burda, anası narahatdı, mən də yanında olsam bəlkə bir az rahat olar. Heç cür razı sala bilmədim. Sonra dedim ki, akkumlyator lazımdı bura gedim Bakıdan gətirim. Razlaşdı. Mən də Bakı ilə danışdım, artıq hər şeyi hazırlamışdılar. Gedib akkumlyatorları gətirdim. Elə o vaxrtdan məni qəbul elədilər hərbi hissəyə. Məni basqı qrupuna götürdülər. 14 gün onlarla xidmət elədim. Amma, gördüm ki, bunlar ancaq gözləmə mövqeyindədilər. Düzdü təminatdayam, amma, bu məni qane eləmirdi. Mənə yanacaq da vermirdilər adım siyahıda yox idi deyə. Əslində gizli mövqe idi biz olan yer. Dedim ki, mən gedirəm Bakıya. Mən qabaqda olmaq istəyirəm. Belə olanda dedilər ki, gəl onda səni uzaq postlara təminata verək. Artıq maşınıma quru qoşunlarının dövlət nömrəsi də verdilər, adımı da qeyd elədlər. Mən ən uzaq postlara , qaynar xətlərə təminata başladım.

Əslində ayın 21-i Dubaya getməli idim, biletim də hazır idi. Qələbədən 1 gün sonra noyabrın 11 Suqovuşanda minaya düşdüm. Mən yaralandım, arxada mənim rəisim də yaralandı. Posta çatmağa 4 metr qalmış düşdüm minaya. Bir anda elə hiss elədim ki, öldüm, dünya qaraldı. Kəlmeyi şəhadətimi dedim. Başımı qaldırdım,

gözümü açmaq istədim, aça bilmədim, sağ ayağımı qaldırmaq istədim, ayağım boş qalxdı, bildim ki, ayağım yoxdu. 4 metr kimi məsafəni arxaya süründüm, məni götürüb sanitar maşınına qoydular. Bütün yolboyu mən özümü də maşındakıları da idarə edirdim. Samir Babazadə heç özündə deyil, hiss elədim ki, maşında üstümə yıxıldı. Başa düşdüm ki, mənim vəziyyətimi görüb halı pis olur. Mən formamı çıxardıb üzümə atdım ki, məni görməsin. Soruşuram ki, kiməsə zəng eləmisən? Deyir yox. Dedim zəng elə Leyla xanıma, nə isə bir təhər zəng elədi. Bizi qarşılayanda mənə morfi vurmaq istədilər qoymadım. ”Bəs o ağrılara necə dözdünüz soruşanda: ”Mən elə güclü ağrı hiss eləməmşəm. Hospitalda belə ağrı kəsici vurdurmadım”. Sonra da davam edir: ”Oğlanlar var ki, bədənlərinin yarısı yoxdur bəs onlar nə eləsinlər”.? Mənim niyyətim bəlli idi. Xalid deyir xəstəxanada mənə “Sakit əmi” deyirdilər. O qədər, sakit idim.

Xaliddən bu sözləri eşidəndə adam nə deyəcəyini bilmir. Bu gün də bir köməyim dəysə düşünmədən gedərəm. Maşını satmamışam, saxlamışam, bir ürəkli oğlan olsa yanımda oturar gedərəm. Mənim hissiyatım çox güclüdü. İndi də yolları, tanıyıram. 37-gün müharibədə olub. Məftundan danışır. Şəhid Məftun. Kamazla ermənilərin qabağına çıxıb. Maşını onların üstünə sürüb, maşında yalan olmasın bir 150 gülləyeri var idi. Qürurla danışır qəhrəman oğullarımızdan. Deyir çox sevinirəm ki, belə qəhrəman oğullarımız var və onların sayəsində torpaqlarımız azad olundu.

Xalid indi də öz işini aparır. Biznesilə məşğuldur. Deyir: ”Hər şey əvvəlki kimidir. Sadəcə yanımda köməkçim var. Bütün qərarlarımı özüm verirəm. Bu günümə şükür edirəm. Şəhid olsaydım nə yaxşı”. Bir azərbaycanlı oğlunun bu qəhrəmanlığı, bu qədər böyük ürəyi adama ancaq qürur verir. Deyir ki: ”Orda elə oğullar

şəhid olub ki, dağ kimi, igid, qəhrəman. Biz neyləmişik ki, onların yanında”.

Deyir: ”sakitəm, rahatam”. Müharibədən əvvəl, çox dinamik həyat yaşadığını deyir. Deyir, bu gün Bakıda idim, sabah başqa bir ölkədə. Amma, heç iynə ucu qədər də heyfislənmədiyi təmkinli danışığından bilinir. Dostları azad olunmuş torpaqlara gedib lər. Xalidə-sənin sayəndə - deyirlər.

Baxın yaşınızda düşmürdü, artıq 40-ı keçmişdi, 3 övlad atası idiniz, getməyə bilərdiniz-burada adamın sözünü kəsir. ”Getmə-səydim sonra necə yşayardım, necə başımı qaldırıb xalqımın üzünə baxardım, necə o torpaqlara ayaq basardım”?

Bu sözlərin qarşısında nə deyəsən. Bu Vətən oğlunun igidliyi, qəhrəmnlığı qarşısında söz tapmaq olmur sadəcə - QÜRUR.

Cəbrayıla getmisən?- deyə soruşuram: ”Yox getməmişəm, bundan sonra heç getməsəm də ürəyim rahatdı”. Xalid üçün əsas torpaqlarımızın düşmən əsarətindən qurtarmağıdı, millətimizin xarici dövlətlərə gedərkən qürurla hər kəsin üzünə baxmağıdır. Ataların, qardaşların valideyinlərinın, övladlarının yanında qürurla dayanmağıdır”.

Xalid və minlərcə Xalid ürəkdə, Xalid cəsarətdə oğulların sayəsində indi başımız ucadır, fəxr edirik və edəcəyik. Yaxşı ki, sizin kimi oğulları bu xalqımıza bəxş edən analarımız var. ”Uşaq vaxtı çox dəcəl olmuşam, anamı çox incitmişəm deyir, amma indi hiss edirəm ki, məndən razıdır. Elə bu mənim bəsimdir”. Öncə VƏTƏN, sonra ANA.

## HÜSEYNOV İSMAYIL



8 iyu 1998-ci ildə Cəlilabad şəhərində anadan olub.

"Müdrik əcdadlarımızdan ma-nət qalmış üç mirası sizə vəsiyyət edirəm - Ana dilimizi - Vicdanımı-zı -Vətənimizi": Şah İsmayıl Xətai.

Vətən oğulları vəsiyyətə əməl etdilər. Vəsiyyətə naxələf çıxmaq bizim xalqa, millətə xas deyil. İl-lərlə, əsrlərlə vətənimizi, torpağımızı qoruyan minlərlə qəhrəman oğullar yetişdirdi analarımız.

Zaman-zaman çirkin xislətli qonşularımızın xalqımıza, millə-timizə namərdliklə yaşatdıqları, ağrının, acının min mislini ya-şatdılar onlara. Çünki, vəsiyyət olunan Vətəni qorumaq ən birinci vəzifələridi, candan qandan irəli.

Canlarından keçdilər, amma Vətəni qorudular. Gözlərinin nu-runu Vətən yolunda qurban verdilər, əvəzində: "Vətən sağ olsun dedilər".

Vətən də, bu xalq da sizi unutmayacaq. Unutmağa haqqımız yoxdur. Sizin qəhrəmanlığı yaşatmaq, yaddaşlara həkk eləmək böyük şərəfdi.

Belə qəhrəmanlardan Hüseynov İsmayıl Məmməd oğlunu tanıyın.

2017-ci ildə hərbi xidmətdə olub Qazax şəhərində. 2018-iyu-lun 2-si xidmətdən qayıdıb. Hər şey general Polad Həşimovun şəhid olmasından sonra başladı. Və könüllü şəkildə orduya yazıldı İsmayıl, minlərlə azərbaycan oğlu kimi, vətənin oğulları kimi. Sentyabrın 26-sı xidmətə çağırılır. İsmayılın olduğu dəstə İlk əvvəl

Cəbrayıl istiqamətində hərəkət edir. 20 oktyabrda isə Qubadlı ərazisinə gəlirlər. Korpus komandiri Mais Bərxudarov da İsmayıl-gillə birlikdə vuruşurdu. Həmin gün xəbər gəldi ki, dəstək lazımdır. 7 nəfər seçdi komandir. Maşına minib təyinat istiqamətinə getdik. İsmayıl deyir: ”Saat 4-5 radələrində döyüşə başladıq. PK istifadə edirdim mən. Təyinat nöqtəsinə çatanda boynumda olan 400 mərmi sürüşdü, əyilb onu düzəltdim, silahımı yerə qoyub, sonra qayıdıb maşından əlavə patron götürüb gələndə artıq minamyotla vurdular bizi”. Bu hadisə 24 oktyabrda baş verir.

Minamyot mərmisi yanına düşən İsmayılın üzü yanır. Amma, o qədər güclü biridi ki, o an belə huşu özündə olub. Əlini sifətinə tutanda istilikdən əlini iüzünə vura bilməyib. Bütün bədəni dizdən yuxarı qəlpələrlə dolur. Amma, o an heç bir ağrı hiss etmədiyini deyir. Gözü görmədiyindən nə edəcəyini, hansı istiqamətdə gedəcəyini bilmir. Əslində getmir sürünür, sonra səngər qazmağa başlayır. Deyir: ”Biz maşına oturub gələndə hər birimizi kəlmeyi - şəhadətimizi oxumuşduq. Çünki şəhadəti gözümüzə almışdıq. Səngəri qəlpələrdən qorunmaq üçün qazırdım. Çünki ölməyə yox öldürməyə getmişdim”. Ona görə qazdığı səngərdə qorunur. Orada nə qədər qaldığını bilmir. Mərmilər durmadan yağır. Bilmir hara getsin. Bu vaxt bir anlığa hər şey, bütün həyatı, doğmaları, dostları bir kino lenti kimi gözünün önündə canlanır. Bir azdan iki əsgər gəlib onu oradan xilas edirlər. Maşına qoyub aparırılar. Maşından düşəndən sonra komaya düşür. Üstündə heç bir məlumat olmadığı üçün hospitalda onu 08 nömrəsi ilə naməlum əsgər kimi qeyd edirlər.6 gün komada qalır. Allaha inamı böyük olan İsmayıl deyir: ”Allah istəyəndə saxlayır”. Komadan ayılandan sonra gözündə sarğı olduğunu hiss edir. Deyir ki: ”Harda olduğumu bilmirdim.

Yanımda tibb bacısı telefond nəyəsə baxır, bu vaxt azan səsi gəlir. Özümdə bir rahtlıq tapdım. Azan səsin eşidəndə ağlamaq tutdu məni. Anladım ki, öz vətənimdəyəm. Səsim çıxmırdı amma, gözümnən yaş gedirdi".



İsmayılın boğazında aparat olduğundan danışa bilmir. Bir neçə günə o aparatı da çıxardırlar. Hospitalda İsmayıldan bir yaxın adamın nömrəsini istəyirlər ki, xəbər versinlər. O da, kağıza görməyə-görməyə dostunun nömrəsini yazır və yazır ki, pepsi də istəyirəm. Bir də yazır ki, anama deyin ki, yaxşıyam.

Bir müddət sonra müalicəsini cərrahiyyə bölməsində davam etdirir. Burda artıq anlayır kİ, görmür. Anası ilə telefonda danişan İsmayıl, ona gördüyünü deyir. Amma, vicdan əzabı çəkir anasına yalan danışdığına görə. Noyabrın 23-də xəstəxanadan çıxan İsmayıl evlərinə gedir. Amma ilk əvvəl anası hələ də görmədiyini bilmir. Evlərinə gələn İsmayıl heç kimlə görüşəndə ağlamır. Bircə onun 20 illik dostu gələndə, onunla görüşəndə hönkürüb ağlayır. Çünki, hər bir sirrini ounla bölüşüb.

İsraildən gələn həkimlərin ona verdiyi cavabı da çox pozitiv qarşılayır. Hər kəsi şoka salır onun bu münasibəti. Həkim cavabı İsmayıın dayısına demək istəyyəndə, söhbətə İsamyıl qarışır: - "Cavabı mənə deyin, dayıma niyə deyirsiniz"? Həkim görməyəcəyini deyəndə İsmayıl: "Burda nə var ki, görməyəcəmsə görməyəcəm".

Həkimin qəbulundan çıxan İsmayılın üzündə gülüş var idi. Hamı çox təəcüblə baxırdı ona. Əslində hər kəsin ürəyində bir ümid həmişə var. Yaşat fondu İsmayılı Türkiyəyə müayinəyə göndərir.

Orda da müayinədən sonra İsmayıla heç vaxt görməyəcəyini deyirlər. İsamyıl bunu da normal qarşılayır, reallıqla barışır.

Pozitiv ruhlu İsmayıl xəyallarından danışır: ”Əgər bir möcüzə olarsa, gözüm görərsə ilk əvvəl şəhidlər xiybanını ziyarət edərəm deyir, ikinci atamın məzarına gedərdim. Sonra anamı, ailəmi, dostlarımı görmək istəyərdim”.

Əslində İsmayıl çox güclüdür. Reallığı qəbul edib, həyatına davam edir. Reabilitasiya mərkəzində İsmayılı hamı pozitiv biri kimi tanıyır. Burada o, bundan sonra həyatını istədiyi kimi yaşamaq üçün brayl əlifbasını öyrənir, idmanla məşğul olur. Müəllimlərindən ağız dolusu danışır. Müəllimlərinin də gözdən qüsurlu olması və buna baxmayaraq öz işlərində olması, həyatlarını davam etdirməsi İsmayıla stimul verir. Əslində İsmayıl özü günü bu gün minlərlə İnsana stimul verəcək gücdədir. O qədər, rahat, sakit, səbirli danışır ki:

“Əlifbanı öyrənirəm, universitetə qəbul olacam. Mən həyatımın hər gününün dadını çıxarda-çıxarda yaşamaq istəyirəm. Öz vəziyyətimi düşünürəm. Deyirəm birdən iki qolumu da itirsəydim onda, necə olacaqdı? Bu günümə şükr edurəm”.

İsmayılda olan inam, özgüvən çoxlarına yaşamaq üçün güc verə bilər. Həyat davam edir. Bir zərrə ümuid varsa yaşamağa dəər.

## HƏSƏNOV SEYMUR



11 dekabr 1980-ci ildə Aqstafa şəhərində anadan olub.

Həsənov Seymurun seçdiyi həyat yolu onu bu mühribənin birbaşa iştirakçısı edir. Çox sevinir ki, müddətdən artıq hərbi xidmətə qayıdıb. Yoxsa yaşının bu vaxtında onu müharibəyə aparmayacaqdılar. Deyir, bu həyatda etdiyim ən düzgün seçim olub.

Aqstafa rayonunda 3 saylı orta məktəbi bitirdikdən sonra, 1998-ci ildə həqiqi hərbi xidmətə çağırılan Seymur, xidmətini Xüsusu Təyinatlı Qüvvələrdə keçir. Xidmətdən qaytdıqdan sonra peşə məktbində kameraman kursunu bitirir. Sonra 2002-ci ildə ANS kanalında işləməyə başlayır. Amma, bütün bunlar Seymurun ürəyində olan arzusunu əvəz eləmir. Elə ona görə də 2008-ci ildə ANS-dən işdən ayrılaraq, hərbiyə daxil olur. Hərbidə ilk əvvəl snayper taqım komandiri kimi qulluq edən Seymur, aprel döyüşlərindən sonra tank komandiri kimi xidmətinə davam edir.

Seymur uşaqlıqdan düşmənimizin kim olduğunu bilirdi. Böyüklərin danışığından, xalqımızın vəziyyətindən bunu anlamışdı. Hətta uşaq vaxtı özündən bir yaş kiçik qardaş ilə birgə şişi götürüb silah kimi bellərinə taxırdılar, sanki düşmənlə vuruşaqcaqlar. Bunu görən qonşu deyirmiş ki, gör bu uşaqların ürəyində nə boyda vətən sevgisi var. O, vaxtlar bunu uşaq hafizəsi, düşüncəsi necə qəbul edirdisə elə biruzə verirdi. Amma, illər keçdikcə özünə heç yerdə yer tapmayan Seymur rahatlığını hərbidə tapir. Vətən sevgisi, vətənə məhəbbət öz sözünü deyir.

27 Sentyabrda ilk döyüşdə Seymurgilin dəstəsi Füzulidə neytralı yardılar. Xocəvənd, Qırmızı bazar istiqamətində vuruşurlar, Suqovuşana çatanda onların dəstəsini Mais Bərxudarovun tabeliyinə verirlər. Və onlar Suqovuşana girmrlər. Cəbrayıl istiqamətində irəliləyirlər və oktyabrın 4-də 2 gün ərzində Cəbrayılın 92 kəndini işğaldan azad edirlər. Sonra Hadrut qəsəbəsini azad edirlər. Mais Bərxudarov onları yığıb Qubadlını azad etmək üçün hazırlıq tapşırığını verir. Yanacaqları olmadığından, yanacaq gətirdirlər və Qubadlı istiqamətində hücuma keçirlər. Qubadlı döyüşündə 9 oktyabrda Seymur yaralanır. Qonşu tabor mühasirəyə düşür, iki gün duman olduğuna görə kömək edə ilmirlər. Seymur deyir:” Biz 3 tankla idik. Sağ tərəfdən hücuma keçmək istəyərdik ki, düşmən sol tərəfdən hücuma keçdi. Biz 3 tankla onların üstünə getdik. Amma, onlar çox idilər. Qabaqda komandirin tankı gedirdi. Tank eleyhinə mərmini yükləyib gözləyidim ki, qarşıma tank çıxdı, onu vurdum, amma gördüm vurulan tankın arxasından bir tank da çıxdı və məni vurdu. Mən bir xeyli huşumu itirmiş halda qaldım. Bizim heyət elə bilir ki, mən ölmüşəm, çünki tankım yanırdı. Onlar irəli gedirlər ki, sonra gəlib məni götürərlər. Mən ayılanda tankdan çıxdım, özümü yerə atdım. Bu vaxt yanımdan iki düşmən tankı keçdi, mənim tankım yanırdı deyə fikir vermədilər. Onlar keçəndən sonra mən dərəyə verdim özümü, sonra yoldan heyətdən məni görən oldu. Dedim ki, mən görmürəm, ya məni vurun, ya da burda saxlamayın. Onlar dedilər: ”biz səni burada qoymarıq”. Əsgərlər mənə ordan çıxmağa kömək edirıər. Biz bir xeyli getik. Yolda iki nəfər yarlı da gördük, birinin ayağı yox idi, o birinin qolu, onları da özümüzlə götürdük. Mən o, əsgərlərə getməyə kömək etdim. Dedim siz mənə göz olun, mən sizə ayaq olaram. Mən özümdə olan ağrıkəsiçiləri bu iki yaralı əsgərə vurdum ki, çox ağrı çəkməsinlər, cavandılar.

Beləliklə 41 kilometr yolu qət edərək gecə 10-11 radələrində Lələtəpəyə çatdıq. Ora çatanda mən şoka düşürəm, elə bilirlər ki, ölmüşəm, məni morqa qoyurlar. Sonra ikinci dəfə şəhidləri morqa gətirəndə könüllü həkim işləyən Mimbər qardaşım baxır deyir ki, necə igid oğullarımız var, bunu deyəndə mənə baxır barmağımı tərpətdiyimi görür və deyir ki, o sağdı. Baxırlar ki, nəbzim vurur. Mən ona canımı borcluyam. Sonra məni ordan Füzuli hospitalına gətirilər. Mənim Aqstafaya şəhid xəbərim gedir. Mən ayılanda ilk yadıma düşən anamın nömrəsi oldu, zəng etdirdim, özümü topladım ki, narahat olma döyüşdəyəm, dedim qardaşımın nömrəsini ver. Mən qardaşıma zəng edəndə ona dedim ki, yaralanmışam, xəstəxanadayam. Amma, gəlməyinizə ehtiyac yoxdur".



Seymur xalqın dəstəyindən ağız dolusu danışır. Tanımadığımız insanlar, valideyinlər bizi görmək istəyirdilər, yemək gətiridilər, həkimlər hər təminat olduğunu desələr də əl çəkmirdilər. İnanırsınız ana bacılar, tanımadığımız insanlar gəlib bizə qulluq edirdilər, yaralarımıza baxırdılar, yuyurdular. Bizim xalqımız bir birinə dəstək olan, həmrəy olan çox gözəl millətdi. Bu 44 günlük müharibədə bunun şahidi olduq. Biz onların yolunda canımızı, sağlamlığımızı qurban verdik. Onlar da özlərini bizə daim borclu bilsələr də biz öz borcumuzu yerinə yetirdik. Bu gün də olsa yenə də eyni əzmlə Vətəni qorumağa gedərəm.

Seymurun bu sözlərindən sonra nəsə demək çətindir. Onun simasında olan, o təbəssüm, o qürur hissi, o əzəmət özü hər şeyi deyir.



## QASIMOVA PƏRVİN

19 mart 1994-cü ildə Gəncə şəhərində anadan olub.

Çox insanın gözündə zəif birisiydim. Düşünürdülər ki, mən başıma gələn bu faciədən sonra hər gün ağlayıb, üsyan edəcəyəm, həyata küsüb içimə qapanacağam. Kim bilər ki, bəlkə də bütün bunlar baş verərdi. Gözlərimdə yaranan o qaranlıq quyuya düşərdim. Əgər həyatımda günəş kimi parıldayan qızlarım və o, işığa rəng qatan kitab sevgim olmasaydı. Amma, bu o demək deyildi ki, arada bir qaranlığa düşmədim. Səhv addım atıb da qaranlığa keçdiyim zaman işığım yolu aydınlatdı. Əslində görmədiyim üçün düşünülən qədər kədərlənmirəm. Çünki, anam və qızlarım mənim görən gözlərimdir. Həmçinin səsli kitabları dinləyəndə ətrafda, həyatda, şəhərdə, parkda, dünyanın hər hansı bir yerində və hətta televiziyada belə baş verənlərin bir çoxunu kitablar vasitəsilə canlandırıram. İnsanların görərək zövq aldığı gözəllikləri, mən öz təxəyyülümdə canlandıraraq daha gözəl görürəm.

Onu bildirmək istəyirəm ki, görməmək həyatın alt-üst olması demək deyil. Şəms Təbrizi deyibki: “Həyatım alt-üst oldu deyə kədərlənmə. Nə bilirsən həyatının altının üstündən yaxşı olmadığını?”

Elə buna görə heç kəs bilə bilməz həyatın bizim üçün nə planlaşdırdığını və nə gətirəcəyini. Hər gün sabah nə geyinəcəyimizi, nə yeyəcəyimizi, hara gedib-gələcəyimizi düşünürük. Lakin, düşünmədiyimiz bir şey var. Görəsən səhər olduğunda sağ-salamat ayaqda qala biləcəyik?! Bəli, mənim də o gün üçün çox planlarım var idi. Haradan bilərdim ki, o səhər günəşin doğuşunu son dəfə görürdüm.

Bəli, hər şey dağıldı altında qaldım. Bəlkə qırıldım, bəlkə yaralandım. Nəticədə Simurq kimi küllərimdən yenidən doğuldum. Və beləcə həyatı axışına buraxdım, içində özümdən belə gizlətdiyim ümidim ilə birlikdə...

Yuxarıda oxuduğunuz Pərvinin öz qələminin məhsuludur. Heç bir nöqtə, vergülünə toxunmadan bura yazdım. O, özünü belə ifadə edir. Yaşadıqlarını, hiss etdiklərini, düşündüklərini. Bəlkə də, artıq yazmaq, fikirlərini, düşüncələrini qələminin vasitəsi ilə oxuculara çatdırmaq Pərvinin bundan sonrakı həyatının başlanğıcıdı. Bəlkə də bundan sonra Pərvinin qələmindən çıxan yazıları hamılıqla sevə-sevə oxuyub, qürur hissi keçirəcəyik. Mən buna heç şübhə etmirəm. Çünki Pərvin rəssamdı, yaradıcı bir insandı. Yaradıcılıq da elə bir vergidir ki, heç vaxt bir tərəfli olmur. Ona görə söhbət edərkən sual verdim:

-Nəsə yazırsan, yəni indiyə qədər nəsə yazmısan?

Pərvinin üzü gülür, təvazökarlıqla başını aşağı salır.

Anası İradə xanım söhbətimizin bu yerində bizə yaxınlaşır:

-Pərvin elə təsirli hekayələr yazırdı ki, inanın neçəsini mənə oxuyanda göz yaşlarımı saxlaya bilməmişəm.



Ürəyimdə çox sevindim:

-İndi necə yaza bilərsən?

Pərvinin üzündə bir ümid qığılcımı parlayır sanki:

-Əlbəttə yaza bilərəm.

Elə də danışdıq Pərvinlə, o yazacaqdı. Biz də onun çap olunmağı üçün əlimizdən gələni edəcəyik, etməliyik, borcumuzdu.,

İndi isə Pərvinin nələr yaşadığını və nələrdən keçib gəldiyini bilməyinizi istəyirəm.

44 günlük müharibənin vurduğu yaralardan yan keçməyən ailələrdən bir də, Pərvinin ailəsidir. O, günə qədər hər şey bambaşqa idi, həyat çox rəngarəng, işıqlı, gözəl idi.

Danışığından, münasibətindən neçə şıltaq, həyat dolu biri olduğu bilinir. Orta məktəbi bitirib, Gəncə Dövlət Universitetinin Təsviri incəsənət fakuləsinə qəbul olub, sərgiləri keçirilir. 2-ci kursdan ailə qurub, 1-ci qızı dünyaya gəlib. 2018-ci ildə Universiteti bitirib, sonra 2020-ci ildə ikinci qızı da dünyaya gəlir. Xoşbəxt idi…

Sentyabrın 26-sı anasıgilə gedir Pərvin. 3 oktyabrda atasının ad gününü qeyd edirlər. 4 oktyabrda səhər çörək almağ gedir Pərvin. Evə gələn Pərvin uşaqların paltarlarını hazırlayır ki, yoldaşı gəlib aparacaq onları.

Hadisəni belə xatırlayır Pərvin: ”Güclü vıyıltı səsi gəldi, pəncərəyə tərəf çöndüm. Ondan sonra heç nə xatırlamadım. Ayılanda üstümdə bir ağırlıq hiss elədim, sağ qolumu tərpədə bilmirdim, ağzıma torpaq dolmuşdu, nəfəs ala bilmirdim. Kəlmeyi şəhadət gətirdim, elə bildim ölürəm, sonra polislər gəldi. Gəlib məni

aparanda, heç nə hiss eləməsəm də istəyirdim ehtiyatlı olsunlar, key kimi idim. Xəstəxanaya gələndə həkimlərə deyirdim ki, qoymayın ölüm, qızlarım var. Əməliyyatdan 3 gün sonra ayıldım. Ayılandan sonra nə baş verdiyini anlamırdım, başım, bütün qolum sarğıda idi. Soruşurdum mənə nə olub, heç kim cavab vermirdi. Artıq biləndə ki, daha görməyəcəm, ilk sözüm bu oldu ki, mən daha kitab oxuya bilməyəcəm? Sonra gülərək deyir ki, amma bu da qarşımı ala bilmədi, indi səsli kitablara qulaq asıram".

Pərvinin bədənində hələ də qəlpələr var, şüşələr var. Sağ gözününü bəlkə də açılmaq ehtimalı var, çünki, buynuzlu qişa donor əməliyyatı olub. Pərvin əslində çox güclü bir qızdır. Özü bəlkə də bunun fərqində deyil. Amma, atdığı addımlar buna sübutdur. Yoldaşından öz istəyi ilə ayrılan Pərvin, qərarının düzgün olduğunu deyir. Böyük qızı yoldaşı ilə qalır, tez-tez əlaqə saxlayırlar, kiçik qızı Pərvinlə anası İradə xanımla birgə qalır. Daha Gəncəyə qayıtmayacağını deyir.

Pərvinin həyata tutunacağı çox güclü bağları var - iki gözəl qız balası və anası İradə xanım. Bunlar Pərvinin öz dedikləridi. Pərvinin demədiyi və onu həyata bağlayan ən vacib amillərdən biri onun yaradıcı insan olmasıdır.Pərvin çox qadınlarımıza örnək ola biləcək gücdədir. Bəlkə nə vaxtsa Pərvinin öz həyat hekayəsinin kitabının təqdimatına yığışdıq.Bu bir ümiddir. Bu ümidi Pərvindən, onun təbəssümündən, gülüşündən, kitablara olan marağından aldıq. Həyat davam edir….



**LƏLƏYEV KƏNAN**

1999-cu il avqustun 19-u Aqstafa rayonunda anadan olub.

İlk gördüyümdə Kənanı gözaltındakı dərin çapığa ilişdi qaldı baxışlarım. BİlmirƏm bəlkə də hiss etdi bunu:

-Sabah Zərifə Əliyeva adına göz klinikasında əməliyyat olunacam.

-Nə yaxşı, sevindim.

Ürəyimdə düşündüm ki, yəqin üzündəki çapığı götürəcəklər. Sanki nə düşündüyümü oxuyurmuş kimi tez cavab verdi.

-Sol almacıq sümüyümün yerində, bir də eyni səmtdə başımın arxa sümüyünün yerində metal yerləşdiriblər. İndi qabırğamdan sümük götürüb metalları sümüklə əvəz edəcəklər.

Bir anlıq düşündüklərimdən utandım. Biz nələr düşünürük, onlar nələr yaşayır. Əslində düşündüklərimiz onların yenidən əvvəlki həyatlarına qovuşmalarıdı.

O qədər ağrı, acını əziyyəti yaşayan Kənanın üzündəki məsum uşaq ifadəsi məni heyrətə saldı. Axı, bu uşaqlar nə vaxt belə böyüdülər, nə vaxt vətən sevgisi ürəklərində böyüyüb ata-ana sevgisindən önə keçdi?

Onun adi torpağı ruhdan, candan irəli,
O atadan qabaqdır, o anadan irəli.

Nə vaxt bu qədər cəsurlaşdılar, nə vaxt? Axı, bu yaşda gənclərin hələ cavanlıq edib, deyib-gülüb, əylənən vaxtlarıdı. Amma, yaşlarına baxmayaraq qazi oldu Kənan və minlərlə gəncimiz, şəhidlik kimi uca zirvəyə yüksəldi dünənki uşaqlar, bu günkü əsgərlər. Müharibənin ağrı acısını yaşadılar. Burada Kənanı vətən sevgisi ilə böyüdən valideyinlər, məktəb müəllimləri yada düşür. Demək ki, torpaqlarımız işğalda olanda vətənə layiqlı övladlar yetişdirə bilirblər. Qarşınızda hər birimiz baş əyirik. Kənanları yetişdirən valideyinlər, çox sağ olun deyirik.

Uşaqlıqdan idmanla məşğul olub Kənan. Ailədə onu hər kəs ali təhsilli, iş adamı kimi görmək istəyir. Amma, Kənan elə uşaqlıqdan hərbiçi olacağını deyir. Və heç kim onu fikrindən döndərə bilmir. Öz-özünü yetişdirməyə çalışır, idmanla məşğul olur. 2016-cı ildə orta məktəbi bitirir. 2017-ci ilin oktyabr ayında Naxçıvanda hərbi xidmətə başlayır. Hərbi xidmətini kəşfiyyat bölümündə keçir. Hərbi xidmətdə olarkən Cüllüt döyüşlərində iştirak edir. İlk müharibəni Kamil bu döyüşlərdə 18 yaşında görür. Xidmətini bitirəndən sonra evdəkilərin təkidinə baxmayaraq, hərbidə qalır. Bir müddətdən sonra Aqstafa rayonunun kəşfiyyat taborunda xidmətə başlayır. Tovuz rayonunda olan döyüşlərdən sonra Müdafiə nazirliyinin baş kəşfiyyat idarəsində yeni korpus yaradılır. Həmin korpusda xidmət etmək üçün, Kənanın xidmət edtdiyi tabordan 8 nəfər müraciət edir, amma iki nəfər keçə bilir. O, iki nəfərdən biri də Kənan

olur. Həmin seçimdən sonra onları Daşkəsənə bir aylıq toplanışa aparırılar.

Kənan deyir: - ”Sentyabrın 21-Daşkəsənə getdik. Sentyabrın 25-i artıq tapşırıq gəldi bizə. 26-sentyabr hər kəsə kaska,bronojilet paylandı. 27 sentyabrda artıq Kəlbəcər istiqamətində döyüşlər başladı. Ordan sonra bizi Göy-golə gətirdilər. Bizim işimiz kəş-fiyyat idi. Koordinatları öyrənib verirdik. Oktyabrın axırına kimi biz orda qaldıq. Oktyabrın 31-i bizi aşağı düşürdülər, ordan da Şuşaya apardılar. Yolda maşınımızı vurdular, məcbur maşından düşdük, vuruşa-vuruşa getdik, itki vermədik. Gəldik Şuşaya çatdıq. Sonra Çanaqçı kəndini götürmək əmri gəldi. Biz Şuşaya girəndə minamyot atdılar, məndən keçib o biri əsgərlərə dəydi. Noyabrın 3-ü artıq çox susuz idik. Bizim dəstəyə təminat çatdırmaq mümkün deyildi. Artıq susuluğa dözmək mümükün olmadığından, məcbur su dalınca getməli olduq. Çünki ya susuzdan öləcəkdik, ya da erməni gülləsindən. Bizə 12 nəfər verdilər, aşağı düşdük su üçün. Orda yolu azdıq, səhvən ermənilər tərəfə getdik, səhv getdiyimizi anlayan kimi, bir təhər ordan uzaqlaşdıq, amma düşmənlər bizi görmüşdülər, onlar bizi nişan alıb atdılar, bir nəfər yaralandı, onu götürüb qalxdıq yuxarı. 10-15 dəqiqə sakitçilik oldu. Sonra minam-yotla vurdular, minamyot başımın üstündən keçib ağaca dəydi, özümü səngərə atdım. Artıq hamı səngərə doldu. Ermənilər mi-namyotla vururdular. Əsgərlərdən biri yaralandı, onu çıxartdım, o əsgərə dedim ki, mən bu gün vurulacam. Dedi elə demə, bizim nə planlarımız var, amma nədənsə elə hiss etmişdim. 4-ü noyabr saat 11 radələri idi. Atılan minamyot gəlib düz ortamıza düşdü. Beynim cingildədi. Heç nə başa düşmədim, bircə onu fikirləşdim ki, şəhid oluram, kəlmeyi şəhadətimi dedim. Öz-özümə dedim ki: ”Kənan sənin yolun da bura qədərmiş”. Bütün gücüm itmişdi. Heç nə hiss eləmirdim. Bir azdan elə bil ki, mənə bir güc gəldi, ayağa qalxdım,

başımda uğultu var idi. İrəli getdim, sonra baxdım ki ,aşağı tərfdə 4 nəfər yerdə uzanıb. Mən bir az irəli getmişdim ki, birdən səs gəldi ki, bura gəl. Artıq qan gözümü tutmuşdu, heç nə görmürdüm. Mən səs gələn tərəfə getdim, amma, nə halda olduğumu bilmirdim,bu vaxt əsgərlərdən biri məni görüb qorxdu və qışqırdı: ”Ləløyevin gözü çıxıb”. Mən bu vəziyyətdə tək 200-300 metr getmişdim. Sonra əsgər yoldaşım qoluma girdi. Mənim kürəyim, başım gözüm, hamısı yaralanmışdı. Bütün bunları sonra biləcəkdim. Dedilər ki, özüm gedim, amma 100 metr getmişdim ki, yıxıldım. Sanitar dedi ki, 15 dəqiqəyə qan itkisindən ölə bilər. Məni xərəyə uzadıb sanitar maşınına qoyub apardılar. Artıq ondan sonra heç nədən xəbərim olmayıb. Mən bir də noyabr ayının 10-da səhər saat 4-də ayıldım, dedilər müharibə qurtarıb. Ayıldım, amma heç nə görmürdüm. Su istədim, harda olduğumu soruşdum, dedilər Bakıdasan. Su istəyirdim, vermirdilər, ki, hələ əməliyyat olmadığımdan icazə yox idi. Axşamı si verdilər içdim, sonra yatdım. Ayılanda həkimlər dedilər ki, komada olduğum vaxt ayılmaq istəmişəm neçə dəfə ayıla bilməmişəm. Adımı soruşublar Elşən demişəm…

Rayonumuzda hər kəs mənim şəhid olduğumu bilirmiş. Qardaşım da hərbi xidmətdə idi. Məlumatı hardansa alan qonşu deyib ki, 196 kəşfiyyatın hamısını vurublar, hamısı şəhid olub. Hamı gəlib mənim haqqımda soruşurmuş.

Atam mənim telefonumun kreditini ödəməyə gedəndə satıcı almaq istəməyib. Atam güclə verib. Evə qayıdanda kənd sovetindən zəng gəlib ki, Kənan şəhid olub. Ondan sonra məni ordan çıxardan əsgər atama zəng edib ki, Kənan yaralı idi, şəhid olmamışdı mən onu axırıncı dəfə görəndə. Sonra anamgil Bakıya gəlirlər.

Həkim də mənə evlə danış deyəndə, dedim ki, xəbərləri yoxdu, danışa bilmərəm. Amma, sonra dedilər ki, evinizə şəhid xəbərin



gedib ona görə danışmalısan. Mən onda danışdım. Atam səsimi eşidəndə hamısı sevincdən qişqırdılar. Anam demişdi ki, Kənana bir şey olsa birinci mənim ölüm çıxmalıdı bu evdən. Ona görə də atamla birlikdə Bakıya gəlir ki, öz gözü ilə görsün məni. Anası haqqında danışarkən gözlərinin dolduğunu sezirəm. Bunu gizlətmək istəsə də alınmır. Belə qəhrəman oğullar ancaq Ana qədər müqəddəs varlığın adı gələndə kövrələrlər.

Kənan deyir: ”12 noyabrda əməliyyat olundum. 6-7 saat çəkən əməliyyatdan sonra, başımdakı qəlpələri çıxartdılar. Üz sümüyüm, arxa kəllə sümüyüm yoxdu, müvəqqəti metal qoyulub. Dekabrın 18-i evə buraxdılar məni. Rayona çatanda gördüm ki, hər kəs məni qarşılamağa gəlib ”.

Qələbə gününün sevincini sözlə ifadə eliyə bilmir Kənan, heç də peşman olmadığını və yeri gəlsə vətən üçün o biri gözünü də verəcəyini deyir. Yeganə heyifsiləndiyi məqam yenidən hərbidə işləyə bilməyəcəyidir.

Adam dinlədikcə qürur hissi duyur, İlahi bu gənclərdə nə qədər dəyanət, ləyaqət var. Bütün döyüş vaxtı ən çox təsirləndiyi məqam, tağım komandiri şəhid olandan sonra telefonuna baxıblar, yoldaşından gələn mesajı görüblər: Təbrik edirəm 2 aylıq hamiləyəm. Bu məqamı heç cür unuda bilmirəm - deyir. Bir də ən çox təsirləndiyi arxa cəbhədə xalqımızın dəstəyi olub. Onlardan gələn məktublar, yardımlar bizə çox dəstək oldu - deyir.

Kənan hərbidə işləyə bilməsə də həyata olan bağlılığı itməyib. Hərbidə snayper olub. Paraolimpiyaçı kimi həyatını davam etdirməyi düşünür. Gülərək deyir ki: ”Nişan alan gözüm yerində”. Hələ ki, əməliyyatları davam edir.

Kənan danışır,ona baxıram, gəncdir, 22 yaşı var, həyatı hələ qarşıdadır. Amma, 22 ilə nələr yaşayıb. Bütün bir xalqın, bütün bir millətin, ailəsinin, dostlarının, qohumlarının qürur yeridi. Kənana baxanda Azərbaycan gəncliyinin ən gözəl nümunəsini görürük. Tanrı qorusun Kənanları, Kamranları, Kamilləri...tanrı qorusun Azərbaycan əsgərini.

Kənanla danışdıqca qulaqlarımda səslənir bu mahnı:

Onun adı torpağı oddan, sudan irəli
O atadan qabaqdır, o anadan irəli.
Bilir ərlər, ərənlər vətəndən pay olmayır,
Ömürdən pay verərlər, vətəndən pay olmayır.

Bizim igid oğullarımız da ömürlərini Vətən yolunda pay verdilər, düşünmədən, daşınmadan. Vətən borcunu canları ilə, əzalarını qurban verərək ödədilər.



**MƏMMƏDOV SADİQ**

30 noyabr 1997-ci ildə Kürdəmir rayonu Şahsevən kəndində anadan olub.

Müharibənin öz qanunları var… Müharibənin öz dəyərləri, öz sevincləri var… Bəli, bəli müharibənin də sevincli anları olur… Qazimiz Məmmədov Sadiq Yaşar oğlunun danışıqlarından müharibənin sevincli anlarının olduğunu öyrəndik.

Orta məktəbi 2014-cü ildə bitirən Sadiq, 2015-cü ildə Ukrayna Xerson Dövlət Universitetinə daxil olur. 2019-cu il ali məktəbi bitirən Sadiq, 2019-cu il 01 oktyabrda həqiqi hərbi xidmətə çağırılır. Bir il hərbi xidmətini çəkən Sadiq 2020-ci il 27 sentyabrdan başlayan döyüşlərə qoşulur… Sadiqin danışdığı müharibənin sevincli anlarından biri hücuma keçəcəkləri əmrinin alınması və müharibəyə qoşulduqları andı. Bəli, missiyanın nə qədər müqəddəs olduğunu düşünəndə Sadiqi və döyüş yoldaşlarının

sevincini anlamaq olur. Sevinc hissindən sonra, ilk anda mərmilərin səsi bir az adama qəribə gəlsə də, sonradan yəni artıq 1 saatdan sonra adi hal kimi qəbul edir adam, yəni elə bil ki, hər zaman bu səsin içində yaşamısan. 29 sentyabrda bir radio əllərinə keçir və Sadiqgil radioda hərbi hissələrimizin torpaqlarımızın, hansısa ərazilərimizin düşməndən təmizləndyini eşidirlər-bu məqam da müharibənin sevincli anlarından biridir.

Sadiq hər zaman Allahın onları qoruduğuna inandığını deyir.

Sadiq danışır: ”Kəskin gedən döyüşlərdə gələn kömək, döyüş dəstələrinin sonradan bizə qoşulması çox qürurverici andır. Bilirsən ki, tək deyilsən… Sadiq bizim gənc əsgərlərimizin qorxmadan irəli getmələrindən fəxrlə danışır. Deyir mən çox eşitmişdim ki, müharibədə qorxub qaçanlar da olur. Amma, bizdə elə hadisə baş vermədi. Yəqin ona görə ki, biz öz torpaqlarımızı azad edirdik. Bizim döyüşlərimiz tarixi döyüşlər idi”.

Sadiqin və döyüş yoldaşı İsayev İsaqın xidmət müddətinin bitməsinə üç gün qalmış müharibə başlamışdı. İsaqın atası telefonla danışanda deyib ki, müharibə 3 ilə ancaq bitər. Bunu eşidən Salayev Elşən yanvarda təxris olunacaqdı, dedi ki, yox bitər o vaxta kimi. Amma, Salayev şəhid oldu… bu da Sadiqin demədiyi, müharibənin kədərli anı, döyüş dostalrının yanında şəhid olmağı.

2020 -ci il 16 oktyabrda Talışkənd yüksəkliyini ələ keçirtmək uğrunda döyüşə başlayırlar. Burada Sadiqin səsi çox kədərlidi… Çünki burada Hacıyev Ramin, İbadov Murad, Əliyev Təbriz, Səmədov Samir, Bayramov Səddam, Gözəlov Ziya,Vəlizadə Faiq… şəhid ourlar. Bir xeyli susur Sadiq… Bu susuqunluğunda gözlərinə çokən kədər o qədər dərindi ki… Vəlizadə Faiqin iki övladı qaldı…Məmmədzadə Toğrul çox gözəl əsgər idi… Döyüşdən əvvəl dedi ki: ”Yuyunmuşam, təmizəm, inşallah şəhid olaram”. Evin tək oğlu idi, iki bacının bir qardaşı…Sadiq ürəyi yana-yana



danışır Toğrul haqqında. Deyir: “Adam inana bilmir elə bir oğulun ölümünə, mən onun məzarını görəndə inandım Toğrulun şəhid olduğuna”.

Sadiq özü 16 oktyabr Suqovuşanda yaralanıb, ən əvvəl qolundan və gözündən yaralanır, amma elə bilir ki, sadəcə gözünə daş dəyib, gözünü itirdiyini bilmir. Sonra yenə minamyotla atılır bu vaxt sağ ayağından, sol topuğundan yaralanır.

Sadiq: ”Bütün qanın içində idim, yatmağa qoymurdular ki, daha çox qan itirməyim. 6 saatdan sonra məni ordan çıxartdılar, maşına qoyub apardılar. Ordan Talışkəndə, sonra Naftalana apardılar məni. Amma, gözümün olmadığını blmirdim. Əməliyyata aldılar məni. Sonra telefon verdilər ki, evə zəng elə. Mən də zəng edib dedim ki, hər şey yaxşıdır. Qardaşım dedi hardasan, dedim ki, dağdan yıxılmışam. Amma, məndən əvvəl onların xəbərləri var idi yaralanmağımdan. Sonra anamgil gəldi. Onlar da gördülər ki, əlim ayağım yerində, gözüm bağlı idi,yaralı bildilər”.

Yenə fikrə gedir, gözlərindən yenə o günü olduğu kimi hiss etdiyi oxunur. Bir müddət sonra yenə davam edir Sadiq. Deyir: “Adam əslində bir təhər olur ki, bir gözün yoxdur. Amma, Əliyev Amil-iki gözünü itirən əsgərimizin ruh yüksəkliyini görəndən sonra adam hər şeyin bir o qədər də pis olmadığını görür. Amil özünə də güc verirdi bizə də”.

Sadiq artıq özünü toplayıb, gözünə protez qoyulub.

Kürdəmir rayonunda regional ASAN xidmətində işləyir. Qazilərimizə kömək edir. Özünü həyata tam yararlı bilir. Qazilərimizin problemləri ilə məşğul olur.

Sadiq danışdıqca fikrinin, xəyalının qazilərimizin, şəhid olmuş əsgərlərimizin yanında olduğunu açıq-aydın hiss edir adam. Bundan sonra Sadiqin həyatı müharıbədən sonrakı dövrdən ibarətdir. O, artıq istəsə də müharibədən əvvəlki Sadiq ola bilməz. Həyatın sevinc, kədər kimi hissləri onun üçün tam başqadır. Bir qazinin sağlamlığında irəliləyiş varsa, bir qazinin gözünün nurunun qayıtmaq imkanı yaranarsa, bir qazının artıq protez ayaqla hərəkət edə bilməsi,protez qolla bir iş görə bilməsi -Sadiqin sevinc meyarları artıq bunlarla ölçülür.

Müharibənin öz qanunları var - dəhşətli, acımasız, qəddar. Cavan əsgərlərimizin şəhid olmaqları var müharibə qanunlarında.

Ömrünün sonuna kimi dünya işığına həsrət qalmaq var, əlsiz-ayaqsız yaşamaq var müharibənin dəhşətli qanunlarında.

Amma bütün bu sadaladıqlarımız xalqımızın qüruru, bütüövlüyü, gələcək övladlarımızın müstəqil, azad yaşamaqları üçündür.

Sadiqin həyat hekayəsi davam edir-qürur dolu, fəxr dolu, sevinc və kədər dolu.



## MƏMMƏDOV VİDADİ

22 iyun 1996-ci ildə Naxçıvanın Babək rayonunda anadan olub.

Sizə, möcüzə nəticəsində sağ qalan qazimiz Vidadi Məmmədov haqqında danışmaq istəyirəm. Bəlkə də Vidadini real həyatda tanımasa adam, danışılanların həqiqət olduğuna inana bilməz. 4 gün yaralı vəziyyətdə, bir gözünü də itirmiş halda əsgər yoldaşlarının yanında qalan, əldə olunan yüksəklikləri itirməmək üçün təhliyə oluna bilməyən,ancaq 4 gündən sonra gələn yeni heyətin köməyi ilə döyüş meydanından çıxarılan Vidadi Məmmədovun hekayəsi, həm ağırdı, hə də inanılası deyil. Amma, həqiqətdir.

2013-cü ildə məktəbi bitirən Vidadi, 2014-cü ildə hərbi xidmətə yollanır. 2015-ci ilin dekabrında hərbi xidməti başa vurub evə qayıdır. Hərbi xidmətdən qayıtdıqdan 3 ay sonra, 2016-cı ildən yenidən xidmətini davam etdirmək üçün xüsusi təyinatlıların kursuna yazılır. Kursu bitirdikdən sonra, xidmətini davam etdirmək

üçün müraciət edir və elə 2016-cı ildən yenidən Naxçıvanda hərbidə xidmətə başlayır.

Müharibə başlayanda Vidadi artıq beş il idi ki, xidmət edirdi. Artıq 2020 ci il sentyabrın 27-si müharibənin başladığına baxmayaraq, onları döyüşə göndərməyib, ehtiyatda saxlayırlar. Amma, Vidadigil təbii ki, hər gün döyüşə göndəriləcəkləri günü gözləyirdilər.

11 oktyabrda onlara müharibəyə qatılacaqlaını xəbər verirlər. Hava lİmanından onları Bakıya gətirirlər. Bakıda bir gün istirahət etdikdən sonra, onların dəstəsini Xocavəndə gətirilər.Artıq Xocavənd alınmışdı.Vidadigilin dəstəsi Hadrut qəsəbəsində Tuğ kəndi istiqamətində irliləyirlər. Bir neçə yüksəkliyi ələ keçirmişdilər. 15 oktyabrda ağır gedən döyüşlərdə Vidadi yaralanır. Yaralanan Vidadi 4 gün öz qrupunun yanında qalır. Sağ gözündən və ayağından yaralanan Vidadini heç cür təhliyə edə bilmirdilər. Çünki, irəli gedirdilər deyə heç cür onu geriyə qaytara bilmirdilər. Çünki, yüksəkliyi əldə etdiklərinə görə oranı tərk edə bilməzdilər. Vidadi deyir: ”Mənim təhliyə olumağım üçün heyəti gözləyirdilər. Heyət də 4 gün sonra 19 oktyabrda gəldi. Sonra məni maşına qoyub aşağı düşürdülər.Yaralandığımdan düz 5 gün sonra artıq mən Bakı Hospitalında idim.Yaralı olduğum vaxt 4 gün gözədiyim halda sadəcə taleyimlə barışmışdım, başqa yolum yox idi, gözləməkdən başqa. Bircə onu başa düşürdüm ki, vəziyyət belədi və bu müharibədir”.

Vidadi danışdıqca adam bir daha əmin olur ki,müharibənin çox dəhşətli qanunları var. Heç kimin poza bilməyəcəyi, heç kimin təsəvvür edə bilməyəcəyi qanunları var müharibənin.

Vidadı yaralanma anını belə xatırlayır: ”Minamyot atıldı, qəlpədən yaralandım. Yerə düşdüm. Elə düşündüm ki, ölmüşəm. Qulaqlarım batmışdı. Nə qədər belə qaldığımı bilmirəm. Özümə



gələndə əlimi tərpətməyə çalışdım, sonra əlimi üzümə aparanda qana bulaşdı, onda yaralandığımı hiss elədim. Döyüş yoldaşlarıma əl elədiim, sonra qışqırdım ki,məni vurdular. Yanıma gələndə heç kim mənə yaxınlaşa bilmədi, çünki pis halda idim, bircə Əlizadə Orxan mənə yaxınlaşdı, məni qucaqladı, hiss elədim ki, əli ayağı əsirdi. Buna baxmayaraq mənə ürək dirək verməyə başladı, dedi qorxma, hər şey yaxşı olacaq. Sonra məni xərəyə qoyub bir kənara çəkdi".

Vidadi deyir, çox qəribə bir haldı ki, bu müddət ərzində mən qanaxmadan ölmədim. Bəlkə də həyəcan keçirtmədim ondan. Müalicə olunanda həkimlərə dedim noldu gözüm görməyəcək? Almacıq sümüyüm tamam dağılıbmış. Onda həkimlər dedi ki, sol gözün görməyəcək daha.

Vidadi deyir həkimlər demək istəməyəndə gözümün vəziyyətini, dedim mən şükürlü adamam, neyləmək olar, müharibədi. Sizin bir gühnahınız yoxdur ki.

Vidadi deyir: "Nə qədər razılaşmağa çalışsam da, nə qədər bir gözümün olmadığını qəbullanmaq istəsəm də…bir yerə qədər… sonra birdən el bil ki, tam başqa bir hala düşür adam. Axı, necə ola bilər, necə ola bilər ki, mənm bir gözüm yoxdur"? Bu fikirlər, bu düşüncələr iki gözünü itirmiş qazimiz İsmayılı görənə kimi davam elədi. İsmayılı görəndə öz özümə ürəyimdə təkrar elədim dönə-dönə: "Axı sən kimsən, sən kimsən ki, bu vəziyyətinlə barışmayasan. Bəs neçə qazimiz var ki, iki gözünü itirib, dünya işiğına ömürlük həsrət qalıblar, bəs onlar nə etsinlər"? O gündən sonra

artıq, bu barədə düşünmədim, anladım ki, mən şükür etməliyəm ki, dünya işığını görürəm".

Vidadi deyir müharibə başlayandan Allaha yalvarırıdım ki,heç bir əsgər yoldaşım yanımda şəhid olmasın,mən buna dözə bilməzdim.Mən heç kimə oğulun, qardaşın şəhid oldu xəbərini verə bilməzdim.

Vidadi danışdıqca, onun nə hiss etdiklərini, nələrdən keçdiklərini və müharibənin dəhşətlərini qismən də olsa təsəvvür etməyə çalışıram. Qismən dedim, ona görə ki, insan bir hadisənin içində olmadan tam dəqiqiliklə hiss edə bilməz. Hələ bu MÜHARİBƏ kimi dəhşətli bir məvhum ola. Kaş ki, bir daha gənclərimiz belə ağır sınaqdan keçməyə məcbr olmasınlar. Analarımız oğul itirməsinlər, körpələrimiz atasız qalmasınlar.

Vidadi kimi igid oğulları dünyaya gətirən analar onlarla fəxr edirlər. Bütün Azərbaycan xalqı onlarla fəxr edir. Ölümün üstünə gedən, ölümün gözünün içinə dik baxan oğulların VƏTƏNİ bundan sonra azad, firavan olmalıdır. Necə ki, bizim azad vətənimiz AZƏRBAYCAN.



## NURİYEV RƏHMAN

06 iyul 1993-cü ildə Kürdəmir rayonu Qarasaqqal kəndində anadan olub.

Rəhman haqqında özündən çox döyüş yoldaşları, anası, doğmaları, Qarasaqqal kəndinin sakinləri, bələdiyyə nümayəndəliyi danışırdı. Iki gözünü itirən Rəhmanın başının yarısı titandı. Çox danışmağı sevmir. Əslinə qalanda əsil igid əsgər kimi, Rəhman bütün sözlərini döyüş meydanında, düşmənlə üz-üzə olanda deyib. Canı bahasına, qanı bahasına vətən torpağının düşməndən azad olunmasında iştirak edən Rəhman ”kaş ki, belə tez yaralanmazdım“ deyir.

31 gün komada olan Rəhmanın anası, oğlunun gözlərinin görmədiyini evə gəlib çatmağına yarım saat qalmış bilib. Anası deyir:

-Rəhmanın evə gəlib çatmağına yarım saat qalmış, dedilər ki, gözləri görmür. Artıq olan olub, nə qışqır, nə ağla. Elə Rəhman özü də xəstəxanadan çıxanda gözlərini itirdiyini bilib. Rəhmanın yaralarına məlhəm qələbə qazanmağımız olub. Çünki o, minlərlə azərbaycan əsgəri kimi bu günü gözləyib. Gözlədilər və həmin günü öz canları bahasına xalqımıza yaşatdılar.

Qəhrəmanımız 2010-cu ildən 2013-ilədək Ağdamda həqiqi hərbi xidmətdə olub. Əsgərlikdən qayıdan Rəhman bir müddət kənddə təsərüfatla məşğul olsa da, hərbiyə olan marağı, istəyi onu rahat buraxmır. Elə bu istəklə də Rəhman 2017-ci ildə gizirlik



kursuna yazılır. Gizirlik kursunu bitirəndən sonra Tərtərdə müddətdən artıq hərbi xidmətə gizir kimi başlayır. 2020-ci il 26 sentyabrda Rəhmangilin dəstəsi Ağdamda istiqamətində müdafiəyə əmri alır. Oktyabrın 1-də yaralanan Rəhman, yaraları sağalmamış yenidən 6 oktyabrda yoldaşlarının yanına qayıdır. 16 oktyabrda Suqovuşan istiqamətində gedən döyüşürlərdə Rəhman ağır yaralanır. Həmin vaxt hamı onun şəhid olduğunu düşünür. Rəhman fədakar həkimlərimizin səyi nəticəsində həyatda qalıb. Anası Nuriyeva Səbahət deyir ki, hücuma keçməmişdən mənə zəng elədi ki: ”Əgər şəhid olsam ağlama, başını dik tut”.

Rəhmanın qardaşı Nuriyev Adil deyir: ”Gizirlik kursunu bitirəndən sonra il yarım qulluq edən Rəhman, elə ordan da döyüşlərə qatılır. Rəhamanın yaralanma xəbərin eşidəndən sonra çox axtardıq onu. Onun ardınca Naftalana, Gəncəyə getdik. Dedilər ki, Bakıdadı. Bakıda mən tanıdım onu, tanınmaz halda idi. Çox ürəkli oğuldu Rəhman. Yeganə arzusu gözünün açılmağıdı. Heç olmasa bir gözü ilə də olsa dünya işığını görmək istəyir”.

Baş leytenant (müharibə vaxtı leytenant) Nuriyev Əliqismət Vahid oğlunun Rəhman haqqında dediklərindən:

-Rəhman Azərbaycan respublikasının çox vətənpərvər və igid hərbiçisi olub. Rəhman gizir rütbəsində olub, tağım komandirinin müavini vəzifəsini daşıyıb. Müharibənin ilk günlərində müdafiədə olduğumuz Ağdam Güllücə istiqamətində Rəhman iki dəfə yaralanır, hospitala gedən Rəhman qayıdır, bir də yaralanan Rəhman bu dəfə də gedib 5 gündən sona qayıdır döyüşə. Qayıdandan sonra

Suqovuşandan Ağdərə istiqamətində hücuma keçirlər. Rəhmanın tapşırığı yaralıları meydandan çıxartmaq idi. Yaralıları çıxardan zaman, Suqovuşandan Talış istiqamətində qalxarkən Rəhman ağır yaralanır. Hamı eıə bilir ki, Rəhman şəhid olub. İki maşın gəlir. Yaralıları bir maşına, şəhidləri digər maşına qoyurlar. Rəhmanı da Şəhidlər olan maşına qoyurlar, 15 dəqiqədən sonra görüblər ki, onun əli tərpənir. Sonra Rəhmanı yaralılar olan maşına qoyurlar. Demək ki, yaşamalı imiş Rəhman.

Mayor Zeynalov Mirsadiq Zeynal oğlu, döyüş vaxtı tabor komandirinin şəxsi heyət üzrə müavini də Rəhmanın igidliyi, qorxmazlığı haqqında ürək dolusu danışır:

-Rəhman bu gündə qəhrəmalığı ilə, igidliyi ilə bizim ordumuza lazım olan hərbi qulluqçulardandı. İki dəfə yaralanıb, yaraları sağalmamış yenidən döyüşlərə qatılması artıq onun necə bir ürəyə, cəsurluğa malik olmasından xəbər verir. Rəhmanın 16 oktyabrda yaralanması artıq şox ağır olur. Əvvəl, onun şəhid olduğunu dedilər, sonra bizə xəbər gəldi ki, o şəhid olmayıb, amma çox ağır yaralıdı. Rəhman sağlamlığını və gözlərini çox sevdiyi vətəninn yolunda qurban verən minlərlə əsgərlərimizdən biridir. Bütün Azərbaycan xaıqı kimi, biz də döyüş yoldaşları olaraq Rəhmanla sonsuz qürur duyuruq.

Rəhman özü haqqında çox az danışdı. Bir çox əsgərlərimiz kimi bunu lazım bilmir. Borcum idi gedib vətəni qorumaq bir vətən oğlu kimi. Bəli sizin kimi vətən oğullarının vətəni düşməndən azad etmək borcunuz idi.

Bizim borcumuz isə Rəhman kimi qəhrəman oğullarımızı tanıtmaq, gələcək nəsillərə onların qəhrəmanlıqlarını, igidliklərini çatdırmaqdır.



## SƏFƏRLİ KAMİL

19 noyabr 1999-cu ildə Tərtər rayonu Cəmilli kəndində anadan olub.

Kamilin danışığından indi də od tökülür. Müharibənin dəhşətindən, şəhid olan yoldaşlarından ürək ağrısı ilə danışır. Ancaq, bu dəhşətlərin içindən qəhrəman kimi çıxıb: ”Azərbaycan əsgəri ora ölməyə yox, öldürməyə getmişdi”- deyir.

Gecə saat ikidə qaranlıqda təkbaşına yarım saat ərzində 90 ədəd mina təmizləyir. Çünki döyüş yoldaşlarının çoxu artıq şəhid olmuşdu. Daha da çox şəhid verməsinlər deyə minaları təkbaşına təmizləyir.

Azərbaycanın Kamil kimi oğulları çoxdu və onların hər birini hər bir Azərbaycanlı tanımalıdı. Tanımalıdı ki, bu günkü günümüzü, bu günükü qürurumuzu necə oğullara borclu olduğumuzu bilsinlər. Elə isə lap başdan başlayaq.

Kamil Tərtər rayonu Cəmilli kəndində 9-cu sinifə kimi oxuduqdan sonra 10-11-ci sinifi Gəncədə bitirir. Hər bir gəncə hərbi qulluğa getmək üçün çağırış vərəqi gəlsə də Kamil könüllü gedir

vətəni qorumağa. Onun gözlərində çəplik olduğuna görə hərbi qulluğa aparmırlar. Bunu özünə sığışdıra bilmir, ağlına da gətirmir ki, əsgərliyə gedə bilməyəcək. Bu vəziyyətlə barışmayan Kamil təsərrüfatlarında olan heyvanlarından sataraq pul toplayır və Bərdə diaqnostika mərkəzində gözlərini əməliyyat etdirir. Əməliyyatdan sonra Respublika xəstəxanasında yoxlanışdan keçir və sonra da hərbi komissarlığa müraciət edərək könüllü olaraq, 2018-ci il yanvar ayının 23-də əsgərliyə gedir, əsgərliyini Naxçıvanda N saylı hərbi hissədə çəkir. 2019-cu il uyulun 1-də ehtiyata buraxılır, evdə 1 ay dincəldikdən sonra yenə də hərbiyə qayıdıb müddətdən artıq hərbi xidmətə başlayır. Mina təmizləyən sapyor kimi hərbi xidmətini davam etdirir.

Çoxları Kamilə - “əgər səni aparmırdılarsa niyə gedirdin?” - sualını verir. Bu suala Kamiln bir cavabı olub: ”Mənim atam, əmilərim 1-ci Qarabağ müharibəsində iştirak ediblər, mən niyə getməyim?. Göz problemi həll olunandısa mən əməliyyat olub gedəcəm vətəni qorumağa ”.

Hərbi forma Kamil üçün qeyrət bayrağıdı - özü belə deyir. Kamil 1-ci Qarabağ şəhidlərinin, qazilərinin qarşısında özünü borclu bilir. Bir məqam az da olsa rahatlıq verirdi, o da geç-tez müharibənin olacağını və düşməndən qisasımızı alacağımız idi.

Artıq müharibənin başlamasının qaçılmaz olduğunu bilən Kamil, axırıncı dəfə evlərindən çıxıb xidmətə yollananda içində qəribə bir hiss var idi. Kamil deyir: ”evdən çıxanda sağollaşanda çox qəribə bir hisslə dönüb qapımıza baxdım, anam dedi ki, sənə nə olub, sən heç vaxt belə sağollaşmamısan. Anama heç nə deməmdim. Amma, mən bilrdim ki, artıq bu müharıbə başlayır, və gedib qayıtmamaq da var. O an ürəyimdən bir hiss keçdi ki, nə olur olsun mən bu evə üzüqara qayıtmayım”.

Kamil: ”Müharibə başlayanda artıq heç nəyi, heç kimi düşünə bilmirdim. Nə ev, nə ailə, nə öz canın haqqında düşünə bilirsən. Gözlərinin önündə - Çingiz Mustafayevin qucağındakı göy gödəkçəli, mavi kalqotkalı körpə, o səhralıqda işgəncə ilə öldürülən analar, qocalar, düşmənə əsir düşən soydaşlarımız, şəhidlərimiz, qazilərimizdən başqa heç nə yox idi. Qəzəb hussi, qisas hissi-bu hisslər o qədər güclü, üzərinə düşən borc o qədər ağırdı ki, ölümün üstünə getdiyini bilə-bilə yenə də gedirsən. Müharıbədə irəli gedə bilmək üçün ürəyində o qəzəb hissini, qisas hissini böyüdüb getməlisən, əgər o qəzəbi içində böyüdüb, düşmənə olan nifrətini gücləndirməsən döyüşə bilməzsən. Çünki, sən nə üçün döyüşdüyünü bilməlisən, tarıxını bilməlisən. Düşmənlərin torpaqlarımızı zəbt edərkən analarımızın, baclarımızın, uşaqların qocaların başına gətirdikləri müsibətləri düşündükcə insanın içindəki qəzəb, qisas hissi adamı daha da güclü edir. Qəzəb, qisas hissi qorxunu məhv edir. Ona görə də içimdə heç bir qorxu hissi yox idi, yeganə qorxduğum şey əsir düşmək idi, onu da düşünəndə deyirdim eybi yox əsir də düşsəm heç olamasa özümlə birgə bacardığım qədər çox düşməni məhv ediərəm. Qalan heç nədən qorxum yox idi deyir.

Yəqin ki, hiss, qəzəb hissi bütün hsslərə qalib gəlir. Fikrində, düşüncəndə tək bir şey var - bircə bu müharibəni qələbə ilə bitirmək və geriyə dönmək. Fərqi yoxdur ya sağ-salamat, ya da tabutda.

Kamil danışdıqca əsgərlərimizdə olan, o gücün, dözümlülüyün hardan yarandığına aid artıq heç bir sual qalmır adamda. Onda başa düşürsən ki, illərlə düşmənə olan nifrət qəzəbə çevrilib, qollarında güc olub əsgərlərimizin.

Talışkənddə, Suqovuşanda gedən qızğın döyüşlərdə iştirak edən Kamil elə Suqovuşanda yaralanır. Dilinə gətirmək istəməsə də Suqovuşana bayrağı sancanın Kamil olduğunu bilirik. Niyə



bunu demədiyini soruşanda: ”Nə fərqi var ki, əsas bayrağı ora aparıb çatdırmaqdı” deyir. Bayrağı sancandan sonra irəli gedirlər. Meşənin içi ilə gedən döyüşlərdə iki nəfər şəhidi çıxardandan sonra, elə meşənin içi ilə yoluna davam edir. Kamil istehkamçı olduğu üçün irəlidə gedir. Deyir, elə bil 30 ildə yeməyib-içməyib hər tərəfi minalayıblar. Ona görə də nə qədər mina təmizləsələrdə güclü partlayış baş verir, və sol gözündən yaralanır. Ona elə gəlir ki, şəhid olur. Astadan kəlmeyi-şəhadətini deyir. Deyir: “kəlmeyi-şəhadətimi oxuduqca, sanki ağrılarım azalırdı, sakitləşirdim. Elə bil tamam başqa dünyadaydım. Nə hiss etdiklərimi sözlə ifadə eləmək çox çətindi”. Bir gözü ilə görür ki, axan qan üstünə tökülür. Deyir: ”özümü elə hiss edirdim ki, sanki məni 50 nəfər döyüb, bir az sonra yuxu məni basır”. Kamil şəhid olduğunu düşünür. Kamili əsgərlərimiz oradan çıxardırlar. Onu yuxu tutsa da həkim onu yatmağa qoymur. Naftalana gələnə kimi yatmır. Onun sol ayağı, üzü də yanıb. Forma yanıb ayağına yapışıb, həkimlər yanan formanı onun ayağından qopardanda o artıq huşunu itirir. Oktyabin 14-ü yaralanan Kamil oktyabrın 23-ü gözünü açır.

Şəhidlik xəbərini evlərinə çatdıranda atası inanmır. Onun atası çörək paylayandı. 1-ci Qarabağ döyüşlərində də hərbiçilərə təmənnasız çörək paylayırmış. Kamilin komandiri zəng edib atasına oğlunun şəhidlik xəbərini verəndə heç cür inanmır, deyir ki,: ”Ola bilməz, mənim oğlum şəhid olmayıb”. Kamilin atası deyir ki, gedin baxın ola bilməz ki, Kamil şəhid olub. Atası Aslan həkimə zəng edir. Deyir maraqlan öyrən, mənim oğlum ölə bilməz. Aslan həkim Gəncəyə zəng edir və deyirlər ki, bəli burada Kamil adında

əsgər var, həmin Kamil gözlərini itirib, şəhid olub. Onu artıq göndərmişik. Amma, Aslan həkim deyib ki, yox mən gedib öz gözlərimlə görməliyəm. Aslan həkim gəlir, özü Sumqayıtda Nasosunuda vertalyotda tabutu açıb əlini salır Kamilin ağzına və hiss edir ki, istilik var, nəfəs var. Aslan həkim deyib ki, mən onu sağaldacam. Kamilin üzərində uzun müddət əməliyyatlar aparıblar, aparata qoşublar.

Kamil onu sağaldan həkimlər haqqında çox böyük təşəkkür hissi ilə danışır. Kamil 19 əməliyyat keçirib, hamısı da narkozla. Əslində Kamilin bir gözü əvvəl görürmüş, amma sonra o gözü də tutulur. Kamil ayılanda həkimlər görür ki, danışa bilmir. Sonra su verirlər. Kamilin boğazına toz torpaq dolduğundan danışa bilmir. Həkimlər onun boğazındakı tozu təmizləyirlər, Kamil danışmağa başlayır. Kamilin bədənində yarlananda 400 qəlpə olub, indi isə Kamilin bədənində 240 qəlpə var. Və bu qəlpələri hələ ki, onun bədənindən tam çıxartmaq mümükün deyil. Kamilin bir gözünün açıla biləcəyini həkimlər ona vəd verirlər. Kamil bu qədər yaşadıqlarına rəğmən həyata ümidini, sevgisini itirməyib. Ondan daha ağır vəziyyətdə olan qazilərimiz var deyir. Bundan sonra əgər, gözü açılmasa şeir yazacaq. Özü belə deiyr. Həyatın gözəlliklərini hiss edən Kamil: ”Adamın gözü kor olsa da, yetər ki, qəlb gözü kor olmasın. Əgər qəlbinizin gözü görürsə, gözünüzün kor olmağı dərd deyil. Qəlb gözünüz görürsə həyatda yaşamağa çox səbəb tapacaqsınız“.

Kamili dinlədikcə onun böyük ürəyinə heyran olur adam, bu vəziyyəti ilə belə hər şeyə şükür edən Kamildən hələ çox şey öyrənə bilərik - SƏBR, İNAM,DÖZÜM, HƏYAT EŞQİ.

Üzünün təbəssümü həyat hekayəsini danışan qazi - Kamil Səfərli, çox yaşa, qürur duy, xalqınla, millətinlə, dövlətinlə ən əsas da biz səninlə qürur duyuruq.



**YUSİFOV ƏLLƏZ**

Vətəndaş olmasa boş şeydir Vətən!
Beş günlük, on günlük güney qarıdır!
Vətən məfhumunun özəyindəki,
Vətənin vüqarlı oğullarıdı!

14 may 1997-ci il Aqstafa rayonu Qarayazı qəsəbəsində anadan olub.

Böyük şairimiz, şəhid atası Xəlil Rza Ulutürkün möhtəşəm misraları həm də 2-ci Qarabağ qazisi Yusifov Əlləz kimi oğullarımıza aiddir. Əlbəttə, Vətənin vüqarlı oğulları olmasa kim onu qoruyacaq, kim onu dünyaya tanıdacaq? İndi qəhrəman oğullarımızın şücaəti nəticəsində bütün dünya bizim ordumuzun möhtəşəm döyüş taktikasından danışır və hələ çox illər danışacaq.

Gözünün nurunu vətən yolunda qurban verən qazi Yusifov Əlləz Aqstafada 31 saylı tam orta məktəbi 2014 də bitirib. İdman Akademiyasına daxil olmaq istəsədə alınmayıb. Əlləzin atası

traktorçu olub, Əlləz də atası ilə birlikdə zəhmətlə, əziyyətlə təsərrüfatda çalışıb.

2015-ci ildə hərbi xidmətə yola düşən Əlləz, xidmətini bitirdikdən sonra müddətdən artıq hərbi xidmət etmək üçün müraciət edir. Müraciətinə müsbət cavab alan Əlləz 6 aylıq xüsusi təyinatlıların kursunu keçir. Sonra gizir olaraq müddətdən artıq hərbi xidmətdə qalır. 2015-ci ildən sonra tam başqa bir həyatı başlayır-Vətənə xidmət. Hər şeydən, hər kəsdən öncə Vətən. Əlləz deyir: ”Onda artıq bir seçimim var idi - Vətən. İndi də iki seçim arasında qalsam - ya ailəm, ya Vətən, düşünmədən Vətəni seçərəm. Çünki vətən olmasa heç kim olmaz. Vətən sevgisi, vətən anlayışı adama qəribə bir güc verir. Vətən sevgisi ilə yanaşı, düşmənlərimizin xalqımızın, millətimizin başına gətirdikləri qeyri insanı əzab, əziyyətlər adamda qisas hissini gücləndirir”.

Müharıbənin başlama anının həyəcanını nə qədər eləsə də tam təfərrüatı ilə izah edə bilmir. Heç vaxt yaşamadığım və yaşamayacağım bir hiss idi deyir. İlk döyüşə Füzuli istiqamətində başlayırlar. Ohanyan səddi deyilən bir yerdən başladıq, çox keçilməz bir sədd idi, orada bizim çox itkilərimiz oldu. Unutmaq mümükün deyil o əsgərlərimizi, düzdü onlar şəhid oldular-ən uca məqama ucaldılar, amma yenə də ağırdı itki. Namazov Mahmud var idi, qızının 1 yaşı təzə tamam olmuşdu, şəkillərini bizə göstərirdi qızının, onun şəhid olmağı çox pis təsir elədi mənə. Onun gözlərindəki ifadə indi də hafizəmdən silinməyib. Gözlərində qəzəb var idi, düşmənə qəzəb, nifrət. Leytenant Qənimətov Mahmud vurulanda onun yanında qaldı, mən də 7 nəfər yaralını təxliyə edib, müşahidə məntəqəsinə yerləşdirdim. Namazovun yerinə olmaq istəyərdim. Onun qızı qalmışdı, amma məni ata-anamdan başqa heç kim gözləmirdi. Qayıdanda artıq Namazovun cənazəsini götürmək istəyirdim ki, dörd tərəfdən atmağa başladılar ermənilər, məni vurdular

başımnan-arxaya tulladı məni. Özümə iynə vurdum, bu vəziyyətdə heç nə elyə bilmədiyimə heyifsilənirdim, amma bizimkilər gəlib Namazovu ordan çıxartdılar, mənim də yaramı bağıadılar. Başımın sağ tərəfindən gözüm qarışıq vurulmuşdum.

Oktyabrın 13-də vurulan Əlləz həkimlərin söhbətini eşidir: "Komandirə yaxşı baxın, o, 7 yaralını xilas edib". Yevlax mərkəzi xəstəxanasında ilk tibbi yardımnan sonra Gəncə hospitalına gətirirlər Əlləzi, iki saat sonra Bakıya göndərilir. Sonra da Zərifə Əliyeva adına Milli Oftalmalogiya mərkəzində əməliyyat edirlər gözünü, sağ gözündəki qəlpələri çıxardırlar və o sağ gözünü itirir. Bu arada gülümsəyir Əlləz, deyir; "bir göz nədir ki, canım fəda olsun vətənə". Heç qorxu hiss yox idi? - soruşanda Əlləzin cavabı: "Qorxu hissi hər bir normal insanda var, olmalıdı. Amma vətənə sevgi, düşmənə nifrət o qədər böyük olur ki, qorxu hissi yoxa çıxır".

Bircə onu bilirəm ki, bacarmıram deyə bir şey yoxdu, sən əsgərsən, vətən oğlusan qorumalısan vətəni. Bizim yerimizə kim edəcək bunu?

Qəribə hisslərdi deyir, çəkdiyim bütün əziyyətləri bir günün, bir saatın sevinci mənə unutdurur. Azərbaycan ordusunun şərəfli əsgərisən. Bircə bu bəs edir yaşadıqlarımı unutmağa.

Yusifov Əlləz aprel döyüşlərində də iştirak edib. 2016 cı ildə Teymurov Pəncəlinin şəhidliyindən danışır ləqəbi "Qoca qurd" idi deyr. Qəhrəmanlığı ondan öyrəndim, o, bizim üçün nümunə idi-deyir.

Danşdıqca görürəm ki, Əlləz özündən çox əsgərlərimizdən, ordumuzdan, general Polad Həşimovdan danışır. Onların qəhrəmanlığından ağız dolusu danışan Əlləz-nə yaxşı ki, sizin kimi oğullarımız var, olub. Sizin hesabınıza indi torpaqlarımız azaddır.




Sən qəhrəman oğullarımızdan danış Əlləz, biz də səndən, sənin qəhrəmanlığından yazaq, qoy bundan sonra hər bir azərbaycanlı sənin necə bir qorxmaz əsgər olduğunu, necə böyük ürəyə sahib olduğunu bilsinlər.

Əlləzin arzusu odur ki, xalqımız indiki vəziyyətimizi düzgün qiymətləndirsin, 1-ci Qarabağ müharibəsindəki vəziyyətimizin nə qədər acınacaqlı olduğunu yada salıb, indi hər şeyin nə qədər fərqli olduğunu görsünlər və dəyərləndirsinlər. İstədiyi odur ki, hami Ali Baş Komandanın yanında olsun.

Əlləz danışdıqca onun nə qədər vətənə, torpağa, millətə bağlı olduğunu görürük. Özü haqqında heç nə demək istəməyən Əlləz əvəzində ordumuz, millətimiz haqqında çox gözəl məqamları vurğulayır. Qələbəyə inamı güclü olub. O, inam da qələbəni qazandırıb bizim orduya. Müharibədən əvvəlki arzularından danışmaq istəmir. Deyir bundan sonra həyatı ancaq müharibədən sonrakı dövrdən ibarətdi.

Bizim üçün Əlləzlər hər zaman ilk yerdə olacaqlar. Bu günümüzün, sabahımızın qəhrəmanları.

# Mündəricat

Vətənə fəda olan işıq........................................................3
Abdinov Cavid........................................................5
Babayev Anar........................................................9
Baxşızadə Kamran........................................................13
Dadaşov Elton........................................................17
Əliyev Amil........................................................21
Əhmədov Nəciməddin........................................................24
Əhmədov Saməddin........................................................28
Gülməmmədov Xalid........................................................32
Hüseynov İsmayıl........................................................37
Həsənov Seymur........................................................41
Qasımova Pərvin........................................................44
Lələyev Kənan........................................................48
Məmmədov Sadiq........................................................54
Məmmədov Vidadi........................................................58
Nuriyev Rəhman........................................................62
Səfərli Kamil........................................................65
Yusifov Əlləz........................................................70

**Qəhrəmanlıq nümunəsi**

**Bakı - "Red N Line" MMC - 2022, 76 səh.**

**Dizayner: İlhamə Məmmədova**

**Yığılmağa verilmişdir: 22.06.2022**
**Çapa imzalanmışdır: 27.06.2022**
**Format: 60x84 1/16**
**Tiraj: 100**